AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

DƏNİZ

QƏZET
1931-ci ildən
nəşr olunur

11 may 2017-ci il № 33-36 (9127) Qiyməti 50 qəpik

BU SAYIMIZDA

AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASINI ƏLA QİYMƏTLƏRLƏ BİTİRƏN TƏLƏBƏLƏR İŞ AXTARMAYACAQLAR

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də Azərbaycan Dövlət Dəniz Akademiyasının dördüncü kursunda oxuyan əlaçı tələbələrlə görüş keçirilib.

Səh. 2

"SU NƏQLİYYATININ PROBLEMLƏRİ" MÖVZUSUNDA XII BEYNƏLXALQ ELMİ-TEXNİKİ KONFRANS KEÇİRİLİB

Mayın 4-5-də Azərbaycan Dövlət Dəniz Akademiyasında Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Su nəqliyyatının problemləri" mövzusunda XII Beynəlxalq elmi-texniki konfrans keçirilib.

Səh. 3

"AZƏRBAYCAN" GƏMİ-BƏRƏSİ HƏM DƏ XƏZƏRƏ YARAŞIQ VERƏCƏK

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin nəqliyyat donanmasına aid "Azərbaycan" gəmi bərəsi tərsanədən endirilib. "Zığ" Gəmi Təmiri Zavodunda iki aya yaxın davam edən tərsanə işləri zamanı gəmi-bərənin sualtı hissəsi təmizlənərək rənglənib, sükan və köməkçi qurğusu, hərəkət mexanizmləri, kinqston qutuları, klinketləri tam təmir olunub.

Səh. 4

AZƏRBAYCAN NƏQLİYYAT VƏ LOGİSTİKA SAHƏSİNDƏ LATVİYANIN MÜHÜM POTENSİAL TƏRƏFDAŞIDIR

Azərbaycan Cənubi Qafqaz regionunda nəqliyyat və logistika sahəsində Latviyanın mühüm potensial tərəfdaşıdır. Bunu Latviyanın yollar naziri Uldis Auqulis Azərbaycanın Riqadakı səfiri Cavanşir Axundovla görüşündə deyib.

Görüşdə Azərbaycan və Latviya arasında nəqliyyat və rabitə sahəsində əməkdaşlıq məsələləri, habelə hökumətlərarası komissiyanın iclasının keçirilməsi vaxtı müzakirə edilib.

Səh. 5

DƏNİZÇİLƏR "ELEKTRON HÖKUMƏT" PORTALINDAN İSTİFADƏ İLƏ BAĞLI MAARİFLƏNDİRİLİB

Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasında "Elektron hökumət" portalının imkanları və istifadəsi ilə bağlı dənizçilər arasında maarifləndirmə tədbiri keçirilib.

Səh. 6

TRİATLONÇUMUZ DÜNYA KUBOKU YARIŞLARINI GÜMÜŞ MEDALLA BAŞA VURUB

Azərbaycanın triatlon üzrə yığmasının üzvü Rostislav Pevstov Çenqduda (Çin) keçirilən dünya kuboku yarışlarının gümüş medalını qazanıb.

Səh. 8

MAYIN 12-DƏN 22-DƏK BAKININ EV SAHİBLİYİ EDƏCƏYİ IV İSLAM HƏMRƏYLİYİ OYUNLARI HƏM BÖYÜK İDMAN BAYRAMINA ÇEVRİLƏCƏK, HƏM DƏ MÜSƏLMAN ALƏMİNDƏ DOSTLUQ, HƏMRƏYLİK, QARDAŞLIQ MÜNASİBƏTLƏRİNİN MÖHKƏMLƏNMƏSİNƏ ÖZ TÖHFƏSİNİ VERƏCƏK

Tarix, ənənələr və coğrafiyamız bizə onu diktə edib ki, Azərbaycan sivilizasiyaların qovuşduğu bir məkan ola bilər və bu, məhz belə də olmalıdır. Əsrlər boyu Azərbaycanda xalqlar həmişə müxtəliflik mühitində yaşayıb. Multikulturalizm, etnik və dini müxtəliflik tariximizin bir parçası və bugünkü reallıqdır. Biz bununla fəxr edirik…

2015-ci il ilk Avropa Oyunlarının keçirilməsi ili oldu. Oyunlar Bakıda 5 mindən artıq avropalı idmançının iştirakı ilə baş tutdu. Təbii ki, bu Oyunlar bir idman tədbiri idi, lakin hesab edirəm ki, onların rəmzi mənası da var idi. Çünki ilk dəfə təşkil olunan Avropa Oyunları bir müsəlman ölkəsində keçirilirdi. Bu, multikulturalizmin və dini dözümlülüyün göstəricisi idi. Oyunlar yüksək səviyyədə təşkil edildi. İdmançılar, qonaqlar olduqca məmnun və xoşbəxt idilər - istər təşkilatçılıq səviyyəsi, istərsə də Azərbaycan xalqı tərəfindən qarşılanma baxımından. Xalqımız avropalı qonaqlara özünün ənənəvi qonaqpərvərliyini nümayiş etdirdi.

…Biz bütün müsəlman ölkələrini təmsil edən 3 min idmançının iştirakı ilə IV İslam Həmrəyliyi Oyunlarının açılışını edəcəyik. Yəni, iki il müddətində eyni şəhərdə Avropa Oyunları ilə yanaşı, İslam Həmrəyliyi Oyunlarının keçirilməsi bizim siyasətimizin və niyyətimizin göstəricisidir. Əminəm ki, burada güclü rəqabət olacaqdır. Ancaq bir daha da qeyd etmək istəyirəm ki, bu, sadəcə idman tədbiri deyil. Bu, insanları birləşdirən hadisədir. Bizim İslam aləmində, ilk növbədə, birliyə ehtiyacımız var.

Təəssüf ki, terrorçuluqdan ən çox əziyyət çəkən məhz elə müsəlman dövlətləridir. Azərbaycan İslam dəyərlərinin təbliği baxımından çox vacib rol oynayır. Biz Avropa paytaxtlarında müxtəlif beynəlxalq tədbirlər – təqdimat və sərgilər təşkil edərək qədim İslam mədəniyyətini təbliğ edirik. Azərbaycan islamofobiya və İslamı terrorçuluqla əlaqələndirmə əleyhinə ən fəal mübarizə aparan ölkələrdəndir. Yəni, regionumuzu daha təhlükəsiz etmək üçün bizim müsəlman dünyasında birliyə ehtiyacımız var. Eyni zamanda, gərginliyin azaldılması üçün bizim İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası və digər beynəlxalq təsisatlar arasında əlaqələndirməyə ehtiyacımız var.

… Azərbaycan nisbətən gənc müstəqil dövlətdir. Böyük tarix, ənənə və mədəniyyətə malik olmağımıza baxmayaraq, müstəqil dövlət olaraq bizim 25 yaşımız var. Ötən il biz müstəqilliyimizin bərpasının 25-ci ildönümünü qeyd etdik. Bu illər onu nümayiş etdirdi ki, ölkənin taleyi öz əlimizdə olanda böyük uğur əldə etmək olar. Əsrlər boyu Azərbaycan müxtəlif dövlətlərin və imperiyaların tərkibində olub və 25 illik müstəqillik sübut edir ki, yalnız azad olan halda uğur qazanmaq olar. Dövlətimizin tarixində Azərbaycan bugünkü qədər güclü olmayıb.

Biz sosial, iqtisadi və siyasi həyatda mühüm nailiyyətlər əldə etmişik. Bu gün Azərbaycan sürətlə inkişaf edən, müasir və dinamik ölkədir. Bu ölkə öz ənənəvi köklərinə bağlı olmaqla yanaşı, dünyaya açıq olan müasir bir dövlətdir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

(Mayın 5-də Bakıda "Mədəniyyətlərarası dialoqun inkişafı: İnsan təhlükəsizliyi, sülh və davamlı inkişaf üçün yeni imkanlar" mövzusunda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılış mərasimindəki nitqindən)

…Azərbaycan müsəlman aləminin ayrılmaz hissəsidir. Azərbaycan bütün müsəlman ölkələri ilə əlaqələrini dostluq, qardaşlıq, qarşılıqlı hörmət əsasında qurur və bu sahədə böyük uğurlara nail olub. Əfsuslar olsun ki, bir sıra müsəlman ölkələrində müharibə gedir, yeni münaqişələr, təhlükələr yaranır, İslam dinini terrorla əlaqələndirən güclərin sayı artır. Heç bir dinin, o cümlədən İslam dininin terrorla heç bir əlaqəsi ola bilməz. Din özü-üzlüyündə terroru rədd edən amildir və İslam dini sülh, mərhəmət dinidir. Hesab edirəm ki, bütün müsəlman aləminin bir araya gəlməsi, dostluq, qardaşlıq, sülh, əməkdaşlıq amilləri ətrafında birləşməsi həm böyük bir idman bayramına çevriləcək, həm də müsəlman aləmində, müsəlman ölkələri arasında olan əməkdaşlığın möhkəmlənməsinə öz töhfəsini verəcəkdir.

Ölkəmiz artıq bütün dünyada idman məkanı kimi tanınır. Azərbaycanda idmanın, Olimpiya hərəkatının inkişafına dövlətimizin verdiyi dəstək bütün dünya tərəfindən çox yüksək qiymətləndirilir. Aparılan siyasətin nəticəsi isə göz qabağındadır. İlk növbədə, bu, əlbəttə ki, Azərbaycan idmançılarının son illər ərzində əldə etdikləri nailiyyətlərdir. Ötən il Rio Yay Olimpiya Oyunlarında bizim idmançılarımız 18 medal qazanaraq medalların sayına görə müsəlman ölkələri sırasında birinci yeri tutmağa nail olmuşlar. Siz yaxşı xatırlayırsınız ki, birinci Avropa Oyunları zamanı bizim yığma

komandamız 56 medal qazanaraq ikinci yeri tutmuşdur. Əlbəttə, belə nəticələrlə bütün xalqımız fəxr edir və bu, Azərbaycan dövlətinin potensialının, Azərbaycan xalqının qabiliyyətinin göstəricisidir. Ümidvaram ki, IV İslam Həmrəyliyi Oyunları zamanı da idmançılarımız bizi sevindirəcəklər, bizə qələbə sevinci bəxş edəcəklər.

Oyunlarda 57 ölkəni təmsil edən 3 mindən çox idmançının iştirakı gözlənilir. Bu rəqəmlər özlüyündə bir rekorddur. Çünki bu vaxta qədər keçirilən İslam Həmrəyliyi Oyunlarına bu qədər ölkənin qatılması heç vaxt müşahidə olunmamışdır.

… Ölkəmiz və paytaxtımız Oyunların qəbuluna və ən yüksək səviyyədə keçirilməsinə tam hazırdır. Biz "dünya standartlarına uyğun" kəlməsindən tez-tez istifadə edirik. Mənə elə gəlir ki, biz son illər artıq Azərbaycanın standartlarını yaratmışıq. Siz də xaricdə keçirilən bir çox beynəlxalq tədbirlərdə iştirak edirsiniz. Müqayisə etmək üçün imkanınız olur. Biz çalışırıq ki, hər bir tədbiri hərtərəfli hazırlayaq. Bu sahədə bizim artıq böyük təcrübəmiz var. Ölkəmizdə bir çox sahələri əhatə edən beynəlxalq tədbirlər keçirilir. Gələcəkdə də belə tədbirlərin keçirilməsi üçün bir çox müraciətlər var. Yəni, artıq beynəlxalq aləmdə Azərbaycanın bu sahədə imici formalaşıb. Bizə müraciət edən beynəlxalq qurumlar əmindirlər ki, Bakıda, Azərbaycanda keçirilən böyük beynəlxalq tədbirlər doğrudan da bütün tələblərə - həm təhlükəsizlik tələblərinə, həm də təşkilati tələblərə cavab verəcək. Bir daha deyirəm ki, bu, ilk növbədə, Azərbaycan dövlətinin potensialının və Azərbaycan xalqının qabiliyyətinin göstəricisidir.

…Bildiyiniz kimi, Azərbaycan Prezidentinin Sərəncamı ilə 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunub. Bu da öz növbəsində keçiriləcək Oyunların əhəmiyyətini gücləndirir. Əminəm ki, birgə səylərimizlə IV İslam Həmrəyliyi Oyunları uğurla keçiriləcək, Azərbaycanın tarixində növbəti bir qələbə kimi qalacaq. Bu Oyunlar həm böyük idman bayramına çevriləcək, həm də müsəlman aləmində dostluq, həmrəylik, qardaşlıq münasibətlərinin möhkəmlənməsinə öz töhfəsini verəcək.

Mehriban ƏLİYEVA,
Azərbaycanın Birinci vitse-prezidenti

(Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə keçirilən IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin yekun iclasındakı nitqindən)

BAKU 2017 4th Islamic Solidarity Games

TAMAŞAÇILARIN EKSPRESS XƏTLƏR VƏ METRO İLƏ DAŞINMASI ÖDƏNİŞSİZ HƏYATA KEÇİRİLƏCƏK

IV İslam Həmrəyliyi Oyunlarının açılış və bağlanış mərasimlərində tamaşaçıların Bakı Olimpiya Stadionuna daşınması vaxtı bəllidir.

Açılış və bağlanış mərasimləri zamanı tamaşaçıların daşınması saat 17:00-dan başlayacaq və 20:30-dək davam edəcək.

Üç ekspress xətt üzrə hərəkət edəcək marşrutlar tamaşaçıları Olimpiya Stadionuna metronun "20 Yanvar", "Gənclik" və "Qara Qarayev" stansiyalarından aparacaq. Bunun üçün 228 avtobus ayrılıb, 90 avtobus isə ehtiyac yarandığı təqdirdə xəttə buraxılmaq üçün ehtiyatda saxlanılıb.

Bakı Olimpiya Stadionuna ən yaxın metro stansiyası olan "Koroğlu" stansiyasında qatarlar orta hesabla iki dəqiqəlik intervallarla hərəkət edəcək. Açılış və bağlanış mərasimləri zamanı tamaşaçıların ekspress xətlər və metro ilə daşınması ödənişsiz həyata keçiriləcək.

NİZAMİ KİNO MƏRKƏZİNDƏ ÜMUMMİLLİ LİDERƏ HƏSR OLUNMUŞ "DƏNİZ QÜDRƏTLİ DAHİ" SƏNƏDLİ FİLMİNİN TƏQDİMATI OLUB

Mayın 10-da Nizami Kino Mərkəzində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə tədbir keçirilib. Tədbirdə Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanov, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev, hər iki qurumun məsul işçiləri, gələcəyin dənizçiləri - Azərbaycan Dövlət Dəniz Akademiyasının 400-dən çox tələbəsi iştirak ediblər.

Tədbirdə Ümummilli Liderə həsr olunmuş "Dəniz qüdrətli dahi" sənədli filminin də təqdimatı olub. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin hazırladığı filmdə dahi şəxsiyyətin dəniz nəqliyyatı sahəsinə göstərdiyi qayğı və diqqətdən bəhs edilib. Dahi rəhbərin hakimiyyətinin hər iki dövrü ayrı-ayrı dənizçilərin, ictimai-siyasi nüfuza malik şəxslərin dilindən şərh olunub. Filmdə Azərbaycanın indiki siyasi və iqtisadi müstəqilliyinin Heydər Əliyevin ölkəyə rəhbərliyi illərində yaradılmış potensiala əsaslandığı vurğulanır, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin tarixində misilsiz rolu və zəhməti diqqətə çatdırılır.

Xatırladaq ki, "Dəniz qüdrətli dahi" Ümummillli liderin dənizçilik sahəsinə diqqətindən bəhs edən ilk sənədli filmdir. Azərbaycan dilində hazırlanan film rus dilinə də tərcümə olunub.

GƏMİÇİLİYİN MALİYYƏ HESABATI MÜSBƏT RƏY ALIB

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin 2016-cı il üzrə birləşdirilmiş maliyyə hesabatları audit olunub. Auditi dünyada böyük nüfuza malik "Ernst & Young" şirkəti aparıb.

"Ernst & Young" şirkətinin Azərbaycan üzrə idarəedici partnyoru İlqar Vəliyevin Gəmiçiliyin rəhbəri Rauf Vəliyevlə görüşündə bildirilib ki, hesabat beynəlxalq standartlara uyğun hazırlanıb və bütün əhəmiyyətli aspektlər baxımından tələblərə tam cavab verir.

Sözügedən hesabat Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin rəsmi internet səhifəsində yerləşdirilib. (http://www.acsc.az/maliyye/2016_az2.pdf, http://www.acsc.az/maliyye/2016_en2.pdf)

Xatırladaq ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 oktyabr 2014-cü il tarixli 321 nömrəli qərarı ilə təsdiq olunmuş Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunu aparmalı və maliyyə hesabatlarını təqdim etməli olan ictimai əhəmiyyətli qurumların tərkibinə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC də daxil edilib.

AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASINI ƏLA QİYMƏTLƏRLƏ BİTİRƏN TƏLƏBƏLƏR İŞ AXTARMAYACAQLAR

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də Azərbaycan Dövlət Dəniz Akademiyasının dördüncü kursunda oxuyan əlaqı tələbələrlə görüş keçirilib.

Gəmiçiliyin rəhbəri Rauf Vəliyev məzun olmağa hazırlaşan gəncləri təhsildə qazandıqları uğurlara görə təbrik edib. Savadlı və peşəkar gənclərə Gəmiçilikdə hər zaman ehtiyac olduğunu vurğulayan Rauf Vəliyev rəhbərlik etdiyi qurumda əməkdaşların beynəlxalq standartlara cavab verən bilik və bacarıqlara yiyələnmələri üçün bir çox layihələrin həyata keçirildiyini bildirib. Hər il iki gəncin dünyanın nüfuzlu dənizçilik təhsil ocaqlarında Gəmiçiliyin vəsaiti hesabına oxuduqlarını diqqətə çatdıran sədr görüşdə iştitak edən əlaqı tələbələri də sevindirib. Belə ki, buraxılış imtahanlarından və müsahibələrdən uğurla keçən məzunlara Gəmiçilikdə çalışmaları üçün zəmanət məktubları veriləcək.

Görüşdə iştirak edən tanınmış kapitan Giannakakis Titos bildirib ki, bu gün dənizçilik dünyanın hər yerində vacib peşələrdən sayılır. Buna görə, təhsildə fərqlənən gənclər praktik bacarıqlara da mükəmməl yiyələnməlidirlər. Gəmiçiliyin rəhbərliyinin gənclərə dəstək olmasını təqdirəlayiq hal hesab edən Titos gələcəyin dənizçilərini onlar üçün yaradılmış bu imkanlardan lazımınca faydalanmağa çağırıb.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin İnsan resurslarının idarəedilməsi departamentinin rəisi Sevda Məmmədova Akademiyada əlaqı tələbələrin sayının artmasını yüksək qiymətləndirib. Gəmiçilikdə peşəkar və savadlı kapitan, kapitan köməkçiləri və mexaniklərə ehtiyac olduğuna toxunan Sevda Məmmədova Akademiyanın tələbələrinin peşəkarlığının artırılması məqsədi ilə onların Gəmiçiliyin xarici sularda üzən gəmilərində təcrübə keçmələrinə imkan yaradıldığını qeyd edib.

Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbələri Gəmiçiliyin rəhbərliyinə onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildidirblər. Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

İKİNCİ DÜNYA MÜHARİBƏSİ İŞTİRAKÇILARI ETİBARLI SOSİAL MÜDAFİƏ SİSTEMİ İLƏ ƏHATƏ OLUNUBLAR

1941-1945-ci illərdə İkinci Dünya müharibəsində alman faşizmi üzərində Qələbənin əldə olunmasında yaxından iştirak edərək, müstəsna xidmətləri ilə seçilən Azərbaycan bu gün eyni zamanda bu müharibənin iştirakçılarının etibarlı sosial müdafiəsinin təmin olunması istiqamətində fəal dövlət siyasətinə malikdir.

Ölkəmiz dövlət müstəqilliyini bərpa etdikdən sonra ilk vaxtlarda bu təbəqədən olan insanlara biganə münasibət özünü göstərsə də, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1993-cü ildə xalqımızın iradəsi ilə yenidən respublikaya qayıdışından sonra bu ədalətsiz yanaşmaya son qoyulub. İkinci Dünya müharibəsi iştirakçılarını cəmiyyətimizin ən hörmətli insanları kimi dəyərləndirən Ulu öndərimiz 9 May - Qələbə gününün yenidən dövlət bayramları sırasına daxil edilməsini, həmin müharibənin iştirakçılarının sosial müdafiəsi sahəsində mühüm addımların atılmasını təmin edib. 1994-cü ildə "Veteranlar haqqında" Qanun qəbul olunmaqla, İkinci Dünya müharibəsi iştirakçılarına dövlət qayğısının ildən-ilə artırılması istiqamətində müvafiq işlər aparılıb.

2003-cü ildən etibarən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu siyasət uğurla davam etdirilməklə, İkinci Dünya müharibəsi iştirakçılarına qayğı daha da artırılıb. Dövlət başçısının müvafiq Fərmanı ilə 2008-ci ilin sentyabrın 1-dən müharibə əlillərinə, o cümlədən İkinci Dünya müharibəsi əlillərinə Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdünün təyin olunaraq ödənilməsinə başlanılıb. Ötən dövrdə bu təqaüdlərin məbləği orta hesabla 2 dəfədən çox artırılaraq, I qrup əlillər üçün 165 manata, II qrup əlillər üçün 143 manata, III qrup əlillər üçün 110 manata çatdırılıb. Müharibə iştirakçılarından hazırda 431 nəfəri müharibə əlili kimi, 332 nəfəri isə müharibə iştirakçısı kimi Prezident təqaüdü alır. Həmçinin İkinci Dünya müharibəsi iştirakçıları, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə də aylıq 110 manat məbləğində olmaqla Azərbaycan Prezidentinin təqaüdləri verilir.

Bu sosial təminat növü ilə bərabər, İkinci Dünya müharibəsi əlilləri və iştirakçıları əmək pensiyaları ilə təmin olunurlar və onların yaşa görə əmək pensiyalarının baza hissəsinin üzərinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada əlavələr də hesablanıb. Ötən dövrdə digər müharibə əlilləri ilə yanaşı, 102 nəfər İkinci Dünya müharibəsi əlilinin mənzillə, bu təbəqədən olan 1117 nəfərin minik avtomobili ilə təminatı həyata keçirilib. Həmin vətəndaşların dövlət hesabına bərpa-müalicə xidməti, sanator-kurort putyovkaları və s. ilə təminatı sahəsində də məqsədyönlü işlər görülür. Eyni zamanda sosial xidmətlərə ehtiyac duyan 32 nəfər İkinci Dünya müharibəsi iştirakçısına müraciətlərinə uyğun olaraq, sosial işçilər tərəfindən evlərində sosial xidmətlər göstərilir.

Hər il 9 May - Qələbə günü ərəfəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardımların verilməsi barədə sərəncamların imzalanması da həmin insanlara yüksək diqqət və qayğıdan xəbər verir. Bu il də qeyd olunan şəxslərə birdəfəlik yardım verilməsi barədə dövlət başçısı tərəfindən 2017-ci il aprelin 24-də imzaladığı Sərəncam imzalanıb və bu məqsədlə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 7,2 milyon manat vəsait ayrılıb.

Sərəncamın icrası olaraq, ümumilikdə 13 312 nəfər şəxs Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən birdəfəlik maddi yardımlarla təmin olunub. Onlardan 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçıları olan 763 nəfərin hər birinə 1000 manat məbləğində birdəfəlik maddi yardım verilib. Qalan 12 549 nəfər isə bu müharibədə həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadları, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslər, həmin müharibə illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçiləri, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslər, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarıdır ki, onların da hər birinə 500 manat məbləğində birdəfəlik maddi yardım ödənilib.

Həmin insanlara yönələn birdəfəlik yardımların məbləğində vaxtaşırı olaraq artımlar edilir. Bu istiqamətdə növbəti addım kimi, 2016-cı ildən etibarən bu maddi yardımların məbləği 25 faiz artırılıb və müvafiq olaraq 800 manatdan 1000 manata və 400 manatdan 500 manata çatdırılıb. Ümumilikdə Azərbaycan MDB-yə üzv ölkələr arasında hər il Qələbə günü ərəfəsində İkinci Dünya müharibəsi iştirakçılarına ən yüksək məbləğdə birdəfəlik maddi yardımın verildiyi ölkədir.

Qeyd olunanlar ölkəmizdə İkinci Dünya müharibəsi iştirakçılarının və digər müvafiq şəxslərin daim dövlət qayğısı ilə əhatə olunduqlarını göstərir. Bu qayğıya layiqli cavab olaraq, İkinci Dünya müharibəsi iştirakçıları da respublikamızın inkişafı proseslərində, xüsusən də gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində fəal iştirak edirlər.

"SU NƏQLİYYATININ PROBLEMLƏRİ" MÖVZUSUNDA XII BEYNƏLXALQ ELMİ-TEXNİKİ KONFRANS KEÇİRİLİB

Mayın 4-5-də Azərbaycan Dövlət Dəniz Akademiyasında Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Su nəqliyyatının problemləri" mövzusunda XII Beynəlxalq elmi-texniki konfrans keçirilib.

Konfransın açılış mərasimində çıxış edən rektor Çingiz Əliyev bildirib ki, ənənəvi olaraq hər il keçirilən bu mötəbər elmi toplantıya respublikamızın 11 ali təhsil və elm ocağı ilə yanaşı, Türkiyə, Rusiya, Ukrayna və Gürcüstan alimləri də qoşulublar. Onlar konfransa 100-ə yaxın elmi məruzə təqdim ediblər.

Çingiz Əliyev müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ulu öndər Heydər Əliyevin istər dəniz nəqliyyatının, istərsə də Azərbaycan elminin inkişafındakı misilsiz xidmətlərindən danışıb, məhz bu dahi şəxsiyyətin sayəsində Azərbaycan gəmiçiliyinin qorunub saxlanıldığını və ildən-ilə inkişaf etdirildiyini, möhtərəm prezidentimiz cənab İlham Əliyevin Heydər Əliyev siyasətini uğurla davam etdirərək dəniz nəqliyyatını yeni zirvələrə qaldırdığını vurğulayıb. Nəticədə bugün Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi nəinki bölgədə, Xəzər-Qara dəniz-Aralıq dənizi hövzələrində də aparıcı mövqelərdədir.

Rektor Azərbaycan Dövlət Dəniz Akademiyasının 2015-2020-ci illər üçün İnkişaf Strategiyasının hazırlandığını, Akademiyada müəllimlər üçün ən yeni texnologiyalara əsaslanan infrastrukturun yaradılması, yüksək səviyyəli tədrisin həyata keçirilməsi, kadr hazırlığı, təhsil infrastrukturu və idarəetmə sisteminin beynəlxalq təcrübəyə və Akademiyanın İnkişaf Strategiyasına uyğunlaşdırılması, dənizçilik elmində rast gəlinən elmi problemlər, elmi və texniki tədqiqatların prioritet istiqamətlərinin həlli kimi məsələlərin İnkişaf Strategiyasının əsas hədəflərindən olduğunu qeyd edib.

Daha sonra Səbail rayon icra hakimiyyətinin başçısı Eldar Əzizov Azərbaycan gəmiçiliyinin tarixindən danışdı, Ulu öndər Heydər Əliyevin dəniz nəqliyyatının inkişafındakı rolundan bəhs etdi. Konfransın işinə uğurlar arzulayan icra başçısı bu kimi tədbirlərin əhəmiyyətini vurğulayaraq, elm və təhsilin gənclər üçün vacibliyini önə çəkdi.

Sonra çıxış edən Qazaxıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirinin müavini Nurbek Almaşov, İstanbul Texniki Universitetinin professoru Muhsin Kadıoğlu, admiral F.F.Uşakov adına Novorossiysk Dövlət Dəniz Universitetinin professoru Viktor Sençenko, Batumi Dövlət Dəniz Akademiyasının professoru Mziya Diasamidze beynəlxalq konfrans iştirakçılarını salamlayaraq uğurlar arzuladılar.

Dəniz Akademiyasında elmi işlərin yerinə yetirilməsində, tədqiqatların aparılmasında yaxından iştirak edən "Gəmi energetik qurğuları və gəmiqayırma" kafedrasının müdiri, dosent Akif İsmayılov kafedranın elmi fəaliyyəti barədə ətraflı məruzə edib.

Sonda Dəniz Akademiyasının elmi işlər və beynəlxalq əlaqələr üzrə prorektoru, professor Zahid Şərifov elmi-texniki konfransın iş qaydası və reqlamenti haqqında məlumat verərək, iştirakçıları bölmə iclaslarına dəvət edib.

Konfrans 2 gün ərzində 5 bölmədə - "Gəmiqayırma və gəmi təmiri texnologiyası", "Gəmiçilik və su nəqliyyatının istismarı", "Gəmiçilik texnikası", "Gəmiçilikdə təbiət elmlərinin problemləri" və "Gəmiçilikdə humanitar və dilçilik problemləri" bölmələrində öz işini davam etdirib.

XARİCİ İŞLƏR NAZİRLİYİ ŞUŞA ŞƏHƏRİNİN İŞĞALININ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR BƏYANAT YAYIB

Azərbaycanın Xarici İşlər Nazirliyi Şuşa şəhərinin işğalının ildönümü ilə əlaqədar bəyanat yayıb. Bəyanatda deyilir:

"Ermənistan silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də Azərbaycanın qədim Şuşa şəhəri işğal olunub. İşğal nəticəsində Şuşa şəhəri və rayonun 30 kəndi dağıdılıb, 195 nəfər dinc sakin həlak olub, 165 nəfər yaralanıb, 58 nəfər itkin düşüb, 24 mindən çox əhali etnik təmizləməyə məruz qalıb.

Şuşa şəhərinin işğalı Ermənistanın Azərbaycan Respublikasına qarşı sistematik təcavüz və işğal siyasətinin tərkib hissəsidir. Bu işğalçılıq siyasəti nəticəsində Ermənistan tərəfindən gücdən istifadə edilməklə Azərbaycanın Dağlıq Qarabağ regionu və onun ətrafındakı yeddi rayonu işğal edilib, işğal olunmuş ərazilərdə bir milyondan artıq azərbaycanlı qanlı etnik təmizləməyə məruz qalıb və müharibə dövründə Ermənistan tərəfindən hərbi və insanlıq əleyhinə ağır cinayət əməlləri törədilib.

İyirmi beş ildir işğal altında olan Şuşa şəhəri Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazisinin ayrılmaz hissəsi olmaqla bərabər, Azərbaycan xalqı üçün tarixi, mədəni, mənəvi və rəmzi əhəmiyyətə malikdir. "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan Şuşa şəhərinin işğalı ilə Azərbaycan xalqının maddi-mədəni və mənəvi irsinə ağır zərbə vurulub.

Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində maddi-mədəniyyət və dini abidələrin dağıdılması, talan və təhqir edilməsi, mənimsənilməsi kimi məqsədli siyasəti çərçivəsində yalnız Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidə dağıdılıb, məbədgah və məscidlər təhqir və vandalizmə məruz qalıb, çoxlu sayda nadir əlyazma nümunələri məhv edilib. Bunların arasında Pənah xanın sarayı və kitabxanası, Xan sarayı və karvansaray, Yuxarı və Aşağı Gövhərağa, Saatlı məscidləri, Vaqifin Mavzoleyi, Natəvanın evi və sair abidələr vardır.

Müvəqqəti işğal altında olan Dağlıq Qarabağ regionu həmişə Azərbaycanın ayrılmaz hissəsi olub və olacaqdır.

BMT Təhlükəsizlik Şurası 1993-cü ildə Azərbaycanın ərazilərinin işğal edilməsini qınayan və Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü, beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığını bir daha təsdiq edən 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı qətnamələr qəbul edib. Təhlükəsizlik Şurası bu qətnamələrdə Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olmasını təsdiq edib və işğalçı qüvvələrin bütün işğal edilmiş Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edib. Digər beynəlxalq təşkilatlar da oxşar mövqe nümayiş etdirib.

Beynəlxalq ictimaiyyət Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyini birmənalı və qəti şəkildə dəstəkləyir və hörmət edir. Bununla beynəlxalq ictimaiyyət Ermənistana bir daha bəyan edir ki, işğal nəticəsində əldə olunmuş mövcud status-kvo heç vaxt qəbul edilməyəcək. Həmçinin güc tətbiq edərək dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin pozulması cəhdləri qəbuledilməzdir.

Ermənistan beynəlxalq ictimaiyyətin mövqeyinə tam hörmətsizlik edərək və beynəlxalq hüququn ümumi qəbul olunmuş norma və prinsiplərini kobud şəkildə pozaraq hələ də öz qoşunlarını işğal olunmuş ərazilərdən çıxarmaqdan imtina edir, işğal edilmiş ərazilərin fiziki, demoqrafik və mədəni xüsusiyyətlərini dəyişdirir, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş yüz minlərlə azərbaycanlının Dağlıq Qarabağ və işğal olunmuş ətraf yeddi rayona qayıtmasını və bu ərazilərdəki öz əmlakına sahib olmaq hüququnu rədd edərək hazırkı status-kvonun möhkəmlənməsinə yönəlmiş səylər göstərməyə davam edir.

Ermənistan beynəlxalq hüququn ali prinsipi olan xalqların öz müqəddaratını təyinetmə prinsipindən sui-istifadə edərək, ölkəsinin qonşu dövlət olan Azərbaycanın ərazilərini güc tətbiq etməklə, ilhaq edilməsi cəhdlərini ört-basdır etməyə çalışır. Ermənistanın Azərbaycanda yaşayan ermənilərin vəziyyətinin öz müqəddəratını təyinetmə kimi təqdim etməyə çalışmasının BMT nizamnaməsi və Helsinki yekun aktında təsbit olunmuş öz müqəddəratını təyinetmə ilə heç bir əlaqəsi yoxdur. Əslində öz müqəddəratını təyinetmə prinsipi etnik təmizləmə nəticəsində didərgin düşmüş Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin sayı 80 mindən artıq olan azərbaycanlı əhalisi, o cümlədən Şuşa şəhərinin 33 mindən artıq sakininin Dağlıq-Qarabağ regionuna qayıtmasını tələb edərək, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində onların erməni icması ilə sülh, ləyaqət və çiçəklənmə şəraitində birgə yaşayışını nəzərdə tutur.

Azərbaycan Respublikası beynəlxalq ictimaiyyəti beynəlxalq hüquqa əsasən üzərinə düşən öhdəliklərinə əməl edərək Azərbaycan ərazilərinin işğalına son qoyulması və öz qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması, danışıqlarda konstruktiv addımların atılması üçün Ermənistanın sülhə məcbur edilməsinə və ona ciddi siyasi-diplomatik təzyiqlərin göstərilməsinə çağırır.

Azərbaycan münaqişənin danışıqlar yolu ilə tezliklə nizamlanmasında və regionda davamlı sülhün təmin edilməsində ən maraqlı tərəfdir. Danışıqlar Ermənistanın Azərbaycan ərazilərinin işğalına son qoyulması ilə nəticələnməsə, Azərbaycan BMT Nizamnaməsində təsbit olunduğu kimi beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünün bərpasını təmin etmək hüququnu özündə saxlayır".



TAP-IN İNŞASI ÜZRƏ İŞLƏRİN 40,3 FAİZİ GÖRÜLÜB

"Cənub Qaz Dəhlizi" layihəsi çərçivəsində "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsinin işlənməsi üzrə görüləcək işlərin (ilk qazın hasilatına dair) 92 faizi, Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG) üzrə işlərin 83,8 faizi, TANAP-ın tikintisi üzrə işlərin 69 faizi, TAP-ın inşası üzrə işlərin isə 40,3 faizi icra edilib.

"Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyətindən (CQD) bildirilib ki, bunu CQD-nin baş direktoru Əfqan İsayev deyib. Ə.İsayev qeyd edib ki, inşaat işləri uğurla davam etdirilir.

Qeyd edək ki, "Cənub Qaz Dəhlizi" Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biridir. Layihənin seqmentlərini "Şahdəniz Mərhələ 2", Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi, TANAP və TAP layihələri təşkil edir. Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı "Cənub Qaz Dəhlizi" dünyada inkişaf etdirilən ən kompleks təbii qaz boru kəmərləri zənciri kimi qiymətləndirilir. Bu dəhlizlə ilkin mərhələdə Türkiyəyə 6 milyard kubmetr, Avropaya isə 10 milyard kubmetr Azərbaycan qazının nəqli nəzərdə tutulur. Azərbaycan təbii qazının 2018-ci ilin ortalarında Türkiyəyə, 2020-ci ilədək isə Avropaya çatdırılması planlaşdırılır.

"Cənub Qaz Dəhlizi" layihəsinin məqsədi "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsinin işlənməsi, bu zaman hasil ediləcək təbii qazın genişləndiriləcək Cənubi Qafqaz qaz boru kəməri, yeni tikiləcək TANAP və TAP vasitəsilə Türkiyə və Cənubi Avropaya ixracını təmin etməkdir.

"Cənub Qaz Dəhlizi" QSC Azərbaycan Prezidentinin "Şahdəniz qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və "Cənub Qaz Dəhlizi"nin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında" 2014-cü il 25 fevral tarixli Sərəncamı əsasında yaradılmış və səhmlərinin 51 faizi dövlət mülkiyyəti olmaqla İqtisadiyyat Nazirliyinə, 49 faizi isə SOCAR-a məxsus olan qapalı səhmdar cəmiyyətidir.

"ŞUŞASIZ QARABAĞ, QARABAĞSIZ İSƏ, ÜMUMİYYƏTLƏ, AZƏRBAYCAN YOXDUR"

Azərbaycanın dilbər guşələrindən biri, Qarabağ xanlığının tarixi paytaxtı Şuşanın işğalından 25 il ötür.

Ermənilərin Şuşaya son hücumu 1992-ci il mayın 7-dən 8-nə keçən gecə başlayıb. Şəhər dörd bir tərəfdən raket, top, tank və digər silahlardan şiddətli atəşə tutulub. Bundan sonra düşmən Xankəndi və Kərkicahan istiqamətlərindən piyadalarla hücuma keçib. Şəhər mayın 8-də axşamadək müdafiə olunsa da, silah-sursat və canlı qüvvə sarıdan üstün olan işğalçıların qarşısında tab gətirə bilməyib. Ermənilər əvvəlcə Şuşanı, sonra isə yaxınlıqdakı Kosalar və Şırlan kəndlərini ələ keçiriblər.

Əslində alınmaz qala sayılan Şuşanın belə qısa müddətdə süqut etməsinin səbəblərindən biri şəhərin müdafiəsinin yetərincə təşkil olunmaması idi. Ermənistan isə Şuşa ətrafına çoxsaylı hərbi texnika və canlı qüvvə yığmışdı. Erməni mənbələrinin məlumatlarına görə, şəhərə hücumda 100-dək zirehli maşın və tank, 11 min canlı qüvvə iştirak etmişdi. Erməni silahlı birləşmələrinin tərkibində hətta xaricdən gətirilmiş muzdlular da döyüşürdülər.

Şuşa işğal edilərkən burada 25 min nəfərədək əhali yaşayırdı. Şəhərin müdafiəsi zamanı 195 dinc sakin şəhid olub, 165 nəfər yaralanıb. Ermənilər tərəfindən əsir götürülərək Şuşa həbsxanasında saxlanılan 114 azərbaycanlı sonradan xüsusi qəddarlıqla qətlə yetirilib. Şəhərin 58 sakini itkin düşüb.

Düşmən Şuşadakı bir çox qiymətli tarixi-mədəniyyət abidələrini dağıdıb və talan edib. Bu sıraya məşhur Şuşa qalası, memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası, məbədgah və məscidlər, bütövlükdə 279 dini, tarixi və mədəni abidə daxildir. Eyni zamanda, Şuşanın 25 məktəbi, 31 kitabxanası, 20 səhiyyə müəssisəsi, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu və 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriyası, turist bazası, 2 mehmanxanası, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq Sağlamlıq Məktəbi məhv edilib. Dağıdılan tarixi məkanlar arasında Xurşidbanu Natəvanın, Ə.B.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin , Xan Şuşinskinin, Sadıqcanın evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri və daha neçə-neçə digər abidə var.

Ümummilli lider Heydər Əliyev Şuşanın tarixi əhəmiyyətini belə səciyyələndirirdi: "Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir".

Azərbaycanın tarixi mədəniyyət mərkəzi və Qarabağın tacı olan Şuşa şəhəri 25 ildir Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Amma bu, belə davam edə bilməz. Xalqımız əmindir ki, Prezident və Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və iradəsi sayəsində işğal olunmuş bütün torpaqlarımız, o cümlədən Qarabağın tacı Şuşa nəyin bahasına olursa-olsun düşmən tapdağından azad ediləcək. Ulu Öndərimizin dediyi kimi, "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur".

"AZƏRBAYCAN" GƏMİ-BƏRƏSİ HƏM DƏ XƏZƏRƏ YARAŞIQ VERƏCƏK

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin nəqliyyat donanmasına aid "Azərbaycan" gəmi bərəsi tərsanədən endirilib. "Zığ" Gəmi Təmiri Zavodunda iki aya yaxın davam edən tərsanə işləri zamanı gəmi-bərənin sualtı hissəsi təmizlənərək rənglənib, sükan və köməkçi qurğusu, hərəkət mexanizmləri, kinqston qutuları, klinketləri tam təmir olunub.

Bununla yanaşı, təmirçilər "Azərbaycan" gəmi-bərəsinin istismarı üçün tərsanə təmirindən əlavə zəruri hesab edilən digər işləri də keyfiyyətlə yerinə yetiriblər. Belə ki, üzən nəqliyyat vasitəsinin qəza dizel generatoru, müxtəlif təyinatli su, yağ və yanacaq nasosları və onların elektrik mühərrikləri, hər iki baş mühərriki, üç ədəd köməkçi mühərriki genoratorlarla birgə təmir olunub.

Bundan başqa, üç ədəd nasos və hava kompressoru yenisi ilə əvəzlənib, baş və köməkçi mühərrikləri, digər qurğu və avadanlıqların avtomatik idarəetmə, qorunma və siqnal sistemləri nizamlanıb. Məişət su, yağ və yanacaq sistemlərində borular da təmir olunub.

Dənizçilərin məişət rahatlığı üçün kayutlarda qapı, divan, şkaf dolabları və stolların təmiri həyata keçirilib. Ümumgəmi işıqlandırma sistemində də lazimi işlər görülüb. Gəmi gövdəsinin suüstü hissəsi, vaqon və avtomobil göyərtəsi, tüstü boruları, dəhlizlər, tamburlar və s. təmizlənərək rənglənib.

Xatırladaq ki, təmirdən sonra Xəzərə həm də yaraşıq verəcək "Azərbaycan" gəmi-bərəsi 1985-ci ildə inşa edilib. Uzunluğu 154, eni 18 metr olan gəmi 2425 ton yükgötürmə qabiliyyətinə malikdir.

Onu da deyək ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Xəzərdə yeganə bərə operatorudur. Gəmiçiliyin donanmasında 13 ədəd gəmi-bərə, 2 ədəd Ro-Ro tipli gəmi var. Donanmada mövcud olan 13 gəmi-bərədən 7-si 28 vaqon tutumuna, 6-sı isə 52-54 vaqon götürmə imkanına malikdir. Hazırda bu gəmi-bərələr Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yüklərin daşınmasına xidmət edir. Rəqabətədavamlı xidmət göstərmək üçün istənilən gəmiçilik şirkəti kimi, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" də donanmasında gəmi-bərələrinin sayını artırmağa xüsusi önəm verir.

"DƏDƏ QORQUD" TANKERİNİN HEYƏTİ MÜKAFATLANDIRILIB

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Dəniz Nəqliyyatı Donanmasına məxsus "Dədə Qorqud" tankerinin kollektivi «Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)» respublika müsabiqəsinin qalibləri sırasında yer alıb.

Belə ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Ümumdünya Əməyin Mühafizəsi Günü (28 aprel) münasibətilə keçirdiyi müsabiqədə yüksək göstəricilərə nail olan tankerin heyəti Fəxri Diploma layiq görülüb. Mükafatı AHİK-in sədri, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının vitse-prezidenti, Milli Məclisin deputatı Səttar Mehbalıyev təqdim edib. O, "Dədə Qorqud"un dənizçilərini qazandıqları yüksək nailiyyətə görə təbrik edib, onlara gələcək əmək fəaliyyətlərində uğurlar arzulayıb.

Dəniz Nəqliyyatı Donanması sədrinin müşaviri Hikmət Hüseynov çıxışında bildirib ki, sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması donanma üçün vacib prinsiplərdəndir və bu istiqamətdə işlər bundan sonra da davam etdiriləcək.

Xatırladaq ki, ümumilikdə AXDG əməyin mühafizəsini daim diqqət mərkəzində saxlayır. Bu məqsədlə əməkdaşlar arasında mütəmadi maarifləndirmə işləri aparır, beynəlxalq dərəcəli mütəxəssislərin iştirakı ilə seminarlar, təlimlər və s. təşkil edir.

TƏMİRDƏN SONRA "ATLET-24" KRAN GƏMİSİNDƏ HƏR ŞEY HEYƏTİN ÜRƏYİNCƏDİR







"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Xəzər Dəniz Neft Donanmasının balansında olan 40 tonluq "Atlet-24" kran gəmisinin əsaslı təmiri başa çatıb. "Bibiheybət" Gəmi Təmiri Zavodunda təmir olunan gəmi artıq istismara verilib.

Keçən ilin noyabrından başlanan təmir müddətində gəmidə baş və köməkçi mühərriklər, nasoslar, seperatorlar, boru sistemləri və sair yüksək keyfiyyətlə təmir olunub, gövdənin yararsız hissələri dəyişdirilib. Bununla yanaşı, gəminin sualtı və suüstü hissələri təmizlənərək rənglənib. "Atlet-24"-ün hərəkət-sükan kompleksi, dib-yan armaturları və protektor qurğuları da sazlanıb.

Təmir zamanı işçi heyətin yaşayış şəraiti də diqqətdən kənarda qalmayıb. Yeməkxana, istirahət otağı və kayutlar təmirdən sonra istifadəçilərin ürəyincə olacaq.

Qeyd edək ki, təmir üçün lazımi detallar "Bibiheybət" Gəmi Təmiri Zavodunun Mexaniki təmir bölməsinin Torna sahəsində hazırlanıb. Avadanlıqların işləkliyinə bir daha əmin olmaq üçün gəmi dəniz sınağından keçirilib.

Məlumat üçün bildiririk ki, "Atlet-24" kran gəmisi 1990-cı ildə Polşada inşa edilib. Uzunluğu 63,8 metr, eni 15 metr olan gəmi 1520 at gücünə malik mühərriklə təchiz olunub və suraəti 11,24 uzeldir.

"BİBİHEYBƏT" GƏMİ TƏMİRİ ZAVODUNDA ÜMUMDÜNYA ƏMƏYİN MÜHAFİZƏSİ GÜNÜ İLƏ BAĞLI TƏDBİR KEÇİRİLİB

"Bibiheybət" Gəmi Təmiri Zavodunda Ümumdünya Əməyin Mühafizəsi Günü ilə bağlı tədbir keçirilib.

Tədbirdə zavodun rəhbərliyi, texniki işçilər, bölmə və sahə rəisləri ilə yanaşı, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin texniki direktoru Nurməhəmməd Talıbov, KSƏTƏMM departamentinin rəisi Ələkbər Əzizli, mühəndis Vaqif Bağırov iştirak ediblər.

BGTZ-nin direktoru Nəsib Qəhrəmanov KSƏTƏMM işçilərini Əməyin Mühafizəsi Günü münasibətilə təbrik edib və müəssisədə əməyin mühafizəsinin tələblər səviyyəsində təşkil olduğunu bildirib.

KSƏTƏMM departamentinin rəisi Ələkbər Əzizli, mühəndis Vaqif Bağırov və Zavod Həmkarlar İttifaqı Komitəsinin sədri Əli Mustafayev çıxış edərək əməyin mühafizəsi ilə bağlı lazımi tövsiyələrini veriblər.

Tədbirdə Əməyin Mühafizəsi Günü barədə statistik hesabat da məruzə olunub.

BORU KƏMƏRİNİN DƏNİZ HİSSƏSİ 2018-2019-CU İLLƏRDƏ İNŞA EDİLƏCƏK

Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan "Trans-Adriatik" (TAP) qaz boru kəmərinin inşası çərçivəsində İtaliyada boru kəmərinin keçdiyi meşələrdə tikinti sahəsinin eni 18 metrə endirilib.

Bu barədə TAP-ın "twitter" səhifəsində bildirilir. Qeyd edilir ki, ətraf mühitə təsirin minimuma endirilməsi üçün boru kəmərinin keçdiyi meşələrdə tikinti işləri eni 18 metr olan sahədə aparılır. TAP-ın digər ərazilərində isə tikinti dəhlizinin eni 38-28 metr təşkil edir.

Qeyd edək ki, 2015-ci il mayın 20-də İtaliyanın İqtisadiyyat Nazirliyi tərəfindən verilən əsas icazə sənədinə uyğun olaraq TAP-ın inşasına dair digər müvafiq icazələrin alınması üzrə işlər davam etdirilir. Keçən ilin may ayından etibarən TAP-ın 8 kilometrlik İtaliya hissəsinin inşasına başlanılıb. Ötən ilin yayından TAP marşrutu boyunca partlamamış hərbi sursatın olub-olmadığını yoxlamaq məqsədilə arxeoloji kəşfiyyatlar, eləcə də xətt üzrə bitən zeytun ağacları üçün fitosanitar tədbirlər (tozlanma) aparılır. Oktyabr-dekabr aylarında isə San Foça çimərliyində mikrotunelin tikintisi üzrə bütün geoloji tədqiqatlar yekunlaşıb. Cari ilin martında isə mikrotunelin tikiləcəyi ərazidən 231 zeytun ağacının ilk partiyasının köçürülməsinə başlanılıb. Lakin sonradan Latsio vilayət məhkəməsinin qərarı ilə zeytunlarının köçürülməsi işləri dayandırılıb.

Aprelin 20-də isə İtaliya məhkəməsi TAP-ın bu ölkədəki hissəsinin tikintisi üçün marşrut üzərindəki zeytun ağaclarının köçürülməsi prosesinin dayandırılması ilə bağlı Latsio vilayət məhkəməsinin qərarını ləğv edib. Bundan sonra isə, TAP konsorsiumu İtaliyada boru kəməri marşrutu üzrə zeytun ağaclarının köçürülməsinə yenidən başlayıb.

TAP Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan "Cənub Qaz Dəhlizi"nin bir seqmentidir. Boru kəmərinin təməli keçən il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. İndiyədək "Trans-Adriatik" qaz boru kəmərinin tikintisi üzrə işlərin təxminən 35 faizdən çoxu icra olunub. Layihənin ümumi dəyəri 4,5 milyard avro olacaq. Buraya 2009-cu ildən bəri davam edən dizayn və mühəndislik işləri də daxildir. "Şahdəniz" konsorsiumu ilk qaz satışını 2018-ci ilin sonunda Türkiyəyə və Gürcüstana həyata keçirəcək. Avropaya ilk qazın verilməsi isə 2020-ci ilin əvvəllərinə planlaşdırılır. Bu yaxınlarda layihə üzrə kompressor stansiyalarının tikintisinə də başlanılacaq. Boru kəmərinin dəniz hissəsi isə 2018-2019-cu illərdə inşa ediləcək.

Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TAP layihəsi Cənubi Qafqaz Boru Kəmərinin və TANAP-ın davamı olub, "Şahdəniz-2"-dən hasil olunacaq qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. TAP boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Buradan TAP boru kəməri Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə - Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. Boru kəməri burada "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək.

Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur.

Boru kəmərinin uzunluğu 878 kilometr (Yunanıstan – 550 kilometr, Albaniya – 215 kilometr, Adriatik dənizi – 105 kilometr, İtaliya – 8 kilometr), diametri isə 48 düymdür. Boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçəcək. 2020-ci ilədək layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 1,2 milyard dollar olması gözlənilir.

TAP-ın inşasında ümumilikdə 53 mindən çox borudan istifadə olunacaq. Boru kəmərinin Yunanıstan hissəsində 32 min, Albaniya hissəsində 13 minədək, Adriatik dənizi hissəsində 8 min 750, İtaliya hissəsində isə 660 borudan istifadə ediləcək. Boruların ümumi çəkisi 526 min tondur. Bunun da Albaniya hissəsində 126 min tonu, Yunanıstanda 323 min tonu, dəniz hissəsində 72 min tonu, İtaliyada isə 5 min tonu istifadə olunacaq.

TAP-ın səhmdarları arasında bölgü belədir: BP - 20 faiz, "Cənub Qaz Dəhlizi" QSC - 20 faiz, "Snam S.p.A." - 20 faiz, "Fluxys" - 19 faiz, "Enagás" - 16 faiz və "Axpo" - 5 faiz.

RƏHBƏR HEYƏTİN MÜLKİ MÜDAFİƏ MƏŞQİ UĞURLA BAŞA ÇATIB

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "Bibiheybət" Gəmi Təmiri Zavodunda "Fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı mülki müdafiə orqan və qüvvələrinin idarə edilməsinin təşkili" mövzusunda rəhbər heyətin mülki müdafiə məşqi keçirilib.

Məşqə zavodun rəhbər heyəti ilə yanaşı, Fövqəladə Hallar üzrə komissiya, Mülki Müdafiə Qərargahı, komandir-rəis heyəti, mülki müdafiə qüvvələri və ictimai asayişi qorumaq üçün zavodun 3 saylı hərbiləşdirilmiş mühafizə xidmətinin əməkdaşları da cəlb olunub.

Əsas məqsəd zavodun ərazisində ehtimal olunan və ya baş vermiş fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı mülki müdafiə orqan və qüvvələrinin idarə edilməsinin təşkili üzrə biliklərin təkmilləşdirilməsinə, rəhbər orqanların göstərişlərinin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə, mülki müdafiə qüvvələrinin hazırlıq səviyyəsinin müəyyənləşdirilməsinə, zavodun işçilərinin və ərazisinin mühafizəsinin təşkilinə, davranış qaydaları üzrə biliklərinin artırılmasına nail olmaqdan ibarətdir.

Məşqdən öncə ciddi hazırlıq işləri görülmüşdü. Belə ki, süni fövqəladə hadisənin baş verəcəyi ərazi müəyyənləşdirilmiş, şərti yanğın və dağıntı ocaqları yaradılmış, şəxsi heyətə fərdi mühafizə vasitələri paylanılmış, şərti yaralılara ilkin tibbi yardım göstərilməsi üçün lazımi tibbi ləvazimatlar ayrılmışdı. Bundan başqa, məşqin iştirakçıları təhlükəsiz texnikası qaydaları üzrə təlimatlandırılmışdı.

Təxminən bir saat davam edən məşq uğurla başa çatıb.

Qeyd edək ki, "Bibiheybət" GTZ-də rəhbər heyətin məşqi təcili məlumat cədvəli və FHN-in Səbail rayon FH və MM şöbəsininin göndərdiyi şərti siqnallar əsasında aparılıb.

AXDG-NİN 160 İLLİYİ QARŞISINDA

"UNUTSAQ, UNUDULARIQ"

TƏKCƏ "ƏMƏK QƏHRƏMANI" OLMAYAN KAPİTAN

Əlibala Ələkbər oğlu Rəcəbov 1879-cu il martın 22-də Bakıda dənizçi ailəsində anadan olub.

Erkən yaşlarında anasını, on bir yaşında isə atasını itirən Əlibalanı "Abbasiyə" gəmisində bosman işləyən böyük qardaşı Məlik himayəsinə götürüb. O dövrün bütün dənizçi ailələrində olduğu kimi, Əlibalanı elə uşaq ikən sahibkar Üseynovun gəmilərinin birində yunqalığa verib. On altı yaşı tamam olanda Əlibala matros kimi çalışmağa başlayıb və mahir gəmi sürücüsü ola biləcəyinə də elə həmin illərdə inam yaranıb. Belə ki, gəminin sürücüsü zirək, dərrakəli və zəhmətkeş yeniyetməyə öz gələcəyini daha yaxşı təmin etmək üçün peşəsinin sirlərini öyrədib. Əlibala sonralar başqa gəmilərdə matros işləyəndə də, hər gəmi sürücüsündən nə isə öyrənib. İnadkar gəncin səyləri hədər getməyib, ona matros olmaqla bərabər, həm də sükançı qismində çalışmağa imkan veriblər. Əlibala da ciddi-cəhdlə diplomlu gəmi sürücüsü olmaq arzusu ilə imtahana hazırlaşıb və nəhayət, 1904-cü ildə istəyinə nail olub. O, Bakı dəniz yolları məktəbində imtahandan müvəffəqiyyətlə keçərək "uzaq səfərlər üzrə gəmi sürücüsü" diplomuna layiq görülüb. Həmin tarixdən etibarən Əlibala Ələkbər oğlu fərdi gəmi sahibkarlarının gəmilərində kapitan işləyib və tezliklə bacarıqlı mütəxəssis kimi tanınıb. 1922-ci ildən Xəzər Dəniz Gəmiçiliyində

fəaliyyətə başlayıb.

1923-cü ildə Xəzərdə donanmanın və sahil təsərrüfatının bərpası və təkmilləşdirilməsi üçün genişmiqyaslı işlər görülür. 1927-1935-ci illərdə "Krasnoye Sormovo" Gəmiqayırma Zavodunda Xəzər Dəniz Gəmiçiliyi üçün 11 tanker inşa edilir. Hər birinin yükqaldırma qabiliyyəti 9500 ton olan bu tankerlər o zaman Xəzərdə istismar olunan bütün donanmanın yükqaldırma qabiliyyətinin 50%-ni təşkil edirdi. Belə gəmilər yalnız təcrübəli, qəzasız üzən kapitanlara həvalə olunurdu. 1930-cu ildə Bakıya gətirilən dördüncü tanker - "Ağamalı oğlu" kapitan Əlibala Rəcəbovun sərəncamına verilir.

Ə.Rəcəbov fasiləsiz on iki il bu gəmidə kapitan işləyir. Onun təklif etdiyi yenilik - tankerin dörd boru vasitəsilə doldurulması da məhz "Ağamalı oğlu" gəmisində tətbiq edilir. Bu üsul tankerləri sürətlə yükləyib səfərlərin sayını artırmağa imkan verir. Bundan başqa, Əlibala Rəcəbov 1932-ci ildə tankerlərin yükgötürmə qabiliyyətinin artırılmasını dəstəkləyən ilk kapitanlar sırasında olur və bunun məqsədəuyğunluğunu praktiki surətdə sübut edir. Kapitan həm də 1940-cı ildə artıq bu məsələ üzərində işləyən gəmiqayırma mühəndislərinə yaxından kömək edir.

Tankerin davamlılıq həddini hesablamaq üçün mütəxəssislərə Xəzərdəki dalğaların qabaritləri haqqında məlumatlar lazım olur. Mövcud texniki ədəbiyyatda göstəricilər bir-birindən fərqlənir. Hövzədə isə o zaman dalğaların sistemli şəkildə instrumental ölçüsü aparılmır. Kömək üçün mühəndislər təcrübəli kapitana müraciət edirlər. Ə. Rəcəbov uzun illər ərzində Xəzərdə apardığı müşahidələrin nəticələrini səliqə ilə dəftərçəsinə qeyd etdiyindən, məhz həmin göstəricilər dalğaların qabaritini hesablamaq üçün yeni metodun əsasını qoyur.

Böyük Vətən müharibəsi illərində "Ağamalı oğlu"nun heyəti iradəli komandir Ə. Rəcəbovun rəhbərliyi ilə ən çətin tapşırıqların öhdəsindən şərəflə gəlir. 1943-cü ildə Həştərxana 10000 ton benzin gətirmiş tanker alman faşistlərinin aviazərbələrinə məruz qalır. Reyddə yükünü ikinci barja dolduran tanker boşaltma əməliyyatını saxlayaraq manevr etməyə başlayır. Kapitanın tez və dürüst əmrləri tankeri bacardıqca qırıcıların hədəfindən yayındırır. Lakin həmin hava hücumunda kapitan ciddi yaralanır və kontuziya alır. Bununla belə, Ə. Rəcəbov kapitan körpüsündə qalıb gəminin qorunması üçün qüvvələri səfərbər edir. Tamam haldan düşəndə isə, onu yüngül yaralanmış köməkçisi əvəz edir...

Xəstəxanadan çıxandan sonra kapitan Ə. Rəcəbovun sərəncamına donanmanın flaqman tankeri verilir. Qocaman kapitan 1947-ci ilədək həmin tankeri idarə edir. Lakin müharibədə aldığı yaralar özünü biruzə verir və Ə.Rəcəbov uzun sürən xəstəlikdən sonra öz xahişi ilə işləməyə təmir gəmilərinə keçir və öz peşəsinin incəliklərini gənclərə öyrətməkdə davam edir.

Təvazökar, zəhmətkeş və özünə qarşı həddən artıq tələbkar olan kapitan Ə.Rəcəbovun xidmətləri yüksək qiymətləndirilib. 1936-cı ildən Əmək Qəhrəmanı olan Ə. Rəcəbov iki dəfə Lenin ordeni, "Qırmızı Əmək Bayrağı" və "Şərəf nişanı" ordenləri, "Qafqazın müdafiəsinə görə" və "1941-1945-ci illərdə Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif edilib. "Dəniz Donanmasının fəxri işçisi" adına, SSRİ Dəniz Donanması Nazirliyinin və SSRİ Ali Sovetinin fəxri fərmanlarına layiq görülüb. 1944-cü ildən fərdi təqaüdçü olub.

Görkəmli kapitan, iradəli komandir, sadə, həssas və qayğıkeş insan Əlibala Ələkbər oğlu Rəcəbov 1953-cü il yanvarın 14-də 74 yaşında haqq dünyasına qovuşub.

DƏNİZLƏRİN TƏSLİM OLDUĞU DƏRYA

Dərya Atakişi oğlu Dadaşov 1915-ci ildə Bakının Mərdəkan qəsəbəsində anadan olub.

Orta məktəbi bitirdikdən sonra Bakı pedaqoji texnikumunda oxuyub, lakin tezliklə Bakı dənizçilik texnikumuna keçib, gəmi sürücülüyü ixtisasına yiyələnib.

Dərya Dadaşov bacarıqlı və təcrübəli gəmi sürücüsü kimi tanınıb, sərnişin gəmilərinin sükanı ona etibar olunub. D. Dadaşov kapitan körpüsünə 1938-ci ildə qalxıb, 1957-ci ilədək Xəzərdə çalışıb. 1957-ci ildən 1960-cı ilədək milis orqanlarında işləyib, respublika nəqliyyatında su milis bölməsinə rəhbərlik edib. Dərya Atakişi oğlu 1960-cı ildə yenidən doğma Gəmiçiliyə qayıdıb, əvvəlcə "Türkmənistan", sonra başqa gəmilərdə kapitan olub. Tələbkarlığı ilə seçilib, başçılıq etdiyi heyətlər nizam-intizamı, işə vicdanlı münasibəti ilə fərqlənib.

Dərya Dadaşovun əməyi layiqincə qiymətləndirilib – Lenin ordeni, habelə digər orden və medallarla təltif olunub, "Dəniz Donanmasının fəxri işçisi" adına layiq görülüb.

Uzaq səfərlər kapitanı Dərya Dadaşov 2000-ci ilin fevralında dünyasını dəyişib.

Sevda Abdullayeva,
Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin İctimaiyyətlə əlaqələr üzrə mütəxəssisi

---

YUBİLYAR

ELMİMİZİN ARİFİ

Professor Arif Tapdıq oğlu Məmmədov! Bu ad təkcə respublikamızda deyil, onun hüdudlarından kənarda da elmi-pedaqoji ictimaiyyətə yaxşı tanışdır. O, bir istehsalatçı, müəllim və alim kimi şöhrət qazanmış gözəl ziyalılarımızdandır.

Mən Arif müəllimi 2004-cü ildən - "Gəmiqayırma və gəmi təmiri" kafedrasının professoru kimi Azərbaycan Dövlət Dəniz Akademiyası ilə əməkdaşlığa başladığı vaxtdan tanıyıram. Onun görkəmli alim olması barədə çox eşitmişdik. Yaxından tanıyanda Arif müəllimin necə sadə, təvazökar insan olması, gənclərə əsl pedaqoq qayğısı göstərməsi, ən zəif tələbələrinin belə həvəslə çalışması bu Müəllimə hamının rəğbətini qazandırdı. Geniş dünyagörüşünə, çoxşaxəli və çoxspektrli elmi biliklərə malik Arif müəllim 2004-cü ildən - gəmiqayırma mühəndislərinin Akademiyada ilk buraxılışından mütəxəssis hazırlığında əvəzsiz rol oynayır. Mübaliğəsiz deyə bilərəm ki, kafedranın bütün əməkdaşları belə bir alimlə çiyin-çiyinə işləməkdən iftixar hissi keçirirlər.

Mən 2005-ci ildə namizədlik dissertasiyası üzərində işləməyə başlayanda professor Arif Məmmədovun, elmi rəhbərim, professor Zahid Şərifovun dəyərli məsləhətləri dissertasiya işinin ərsəyə gəlməsində böyük rol oynadı. Arif müəllim o vaxt Dissertasiya Şurasının məsul katibi kimi müxtəlif instansiyalardan keçməkdə, elmi təcrübələrin aparılmasında, rəylərin toplanmasında öz tövsiyələri ilə mənə bu günə qədər minnətdar olduğum köməyini əsirgəmədi. Yəqin ki, bu sözlərin altında təkcə mən yox, onlarca gənc alim imza ata bilər.

Arif Məmmədov 1971-ci ildə Azərbaycan Politexnik İnstitutunun Metallurgiya fakültəsinin "Qaynaq istehsalının avadanlığı və texnologiyası" ixtisasını bitirərək, mühəndis-mexanik ixtisas dərəcəsi alıb. 1971-1973-cü illərdə Ümumittifaq elektrik maşınqayırma elmi-tədqiqat institutunun Bakı bölməsində "Bərk xəlitə ştampları" laboratoriyasında kiçik elmi işçi kimi fəaliyyətə başlayıb.

1974-1998-ci illərdə "Bakı kondisioneri" EİB-də mexanik, baş usta və mərkəzi zavod laboratoriyasının rəisi vəzifələrində çalışaraq, keçmiş Sovet İttifaqında, bir çox xarici ölkələrdə bu müəssisənin geniş şöhrət və nüfuz qazanmasına öz töhfələrini verib. Arif müəllim 1974-1975-ci illərdə Yaponiyada təcrübə keçərək, qabaqcıl texnika və texnolgiyalarla yaxından tanış olub.

O, 1984-cü ildə Rusiya Federasiyasının Novoçerkassk Politexnik İnstitutunda "Maşınqayırmada materialşünaslıq" ixtisası üzrə namizədlik, 1991-ci ildə isə Belorusiyanın Minsk şəhərində "Ovuntu metallurgiyası və kompozisiya materialları" ixtisası üzrə doktorluq dissertasiyasını müdafiə edib. 1994-cü ildən professordur.

Arif müəllim 1998-ci ildən Azərbaycan Texniki Universitetinin "Tökmə və qaynaq istehsalı", sonra isə "Konstruksiya materialları" kafedralarına rəhbərlik edir.

Çox məhsuldar alim, əzmkar tədqiqatçıdır. Onun əsas elmi istiqaməti "Ovuntu metallurgiyası və materialşünaslığı"dır. 300-dən çox elmi-metodiki əsərin müəllifidir. Bunlardan 5-i monoqrafiya, 10-u dərslik və dərs vəsaiti, 40-dan çoxu isə ixtira və patentdir. Elmi-pedaqoji fəaliyyəti dövründə onlarca elmlər namizədi və 2 elmlər doktoru yetişdirib.

Bütün bu deyilənlərlə yanaşı, Arif müəllim geniş ictimai fəaliyyətlə də məşğuldur. O, 1993-2002-ci illərdə Ali Attestasiya Komissiyasının texnika üzrə ekspert şurasının üzvü olub. 1996-cı ildən indiyədək AzTU-da fəaliyyət göstərən dissertasiya şuralarının üzvüdür.

Arif müəllim bir tədqiqatçı alim kimi də geniş fəaliyyət göstərir. 2008-ci ildə Dövlət büdcəsindən maliyyələşən "Nanostrukturlu materialların sintezi və tətbiqi problemləri" elmi-tədqiqat laboratoriyasını yaradıb və hazırda onun elmi rəhbəridir.

Professor A.Məmmədov xarici ölkələrin alimlərilə geniş elmi əlaqələrə malikdir. O, Türkiyədə iki ildən bir keçirilən Beynəlxalq Toz Metallurgiyası Konfransının Azərbaycan üzrə üzvüdür. Ukrayna Materialşünaslıq Problemləri İnstitutu, Rusiya Federasiyasının Cənubi Ural Dövlət Universiteti və digər elm mərkəzlərilə geniş əməkdaşlıq edir.

Bu günlərdə texnika elmləri doktoru, professor Arif Tapdıq oğlu Məmmədovun 70 yaşı tamam olur. Bu əlamətdar yubiley münasibətilə onu təbrik edir, möhkəm cansağlığı və yeni-yeni uğurlar arzulayıram.

Vüqar Sadıqov,
ADDA-nın dosenti, texnika elmləri namizədi.

"İPƏK YOLU" KONFRANSINDA AZƏRBAYCANIN STRATEJİ ƏHƏMİYYƏTİ VURĞULANIB

ABŞ-ın aparıcı biznes və sənaye mərkəzlərindən biri olan Çikaqo şəhərində 2017-ci il üzrə "İpək Yolu" beynəlxalq konfransı keçirilib.

Ənənəvi olaraq hər il təşkil olunan bu konfransda İpək Yolu boyunca yerləşən ölkələrin, o cümlədən Çin, Azərbaycan, Türkiyə, həmçinin Mərkəzi Asiya və bəzi Şərqi Avropa ölkələrinin rəsmi və özəl strukturlarının çoxsaylı təmsilçiləri, eləcə də Çikaqoda və ətraf regionlarda fəaliyyət göstərən şirkətlərin və akademik institutların nümayəndələri iştirak ediblər.

Konfransın əsas mövzusu iştirakçıların Avropanı Çinlə birləşdirən İpək Yolu üzərində yerləşən dövlətlərin investisiya, ticarət, nəqliyyat və tranzit potensialı ilə tanış edilməsindən ibarət olub. Əvvəlki illərdə olduğu kimi, builki tədbirdə də ölkəmiz ABŞ-dakı səfirliyimiz tərəfindən təmsil olunub. Konfransa səfirliyimizin nümayəndələri ilə yanaşı, ABŞ-Azərbaycan Ticarət Palatasının (USACC) təmsilçiləri də qatılıb.

Tədbirdə çıxış edən səfirliyin əməkdaşı Azərbaycanın əlverişli coğrafi mövqeyi, müasir tarixi və öz müstəqilliyini bərpa etdikdən sonra keçdiyi uğurlu inkişaf yolu barədə danışıb, bu yolun iqtisadiyyatın sürətli tərəqqisinə gətirib çıxarmasının səbəblərini izah edib, ölkəmizin təşəbbüsü və aparıcı rolu ilə həyata keçirilən irimiqyaslı layihələrin tarixi İpək Yolunun bərpası baxımından əhəmiyyətinə toxunub. Bu xüsusda, ölkəmizin İpək Yolu üzərində yerləşən ölkələrlə əlaqələrinin gücləndirilməsinə töhfəsi kimi enerji, nəqliyyat, informasiya və telekommunikasiya sahəsində, eləcə də mədəni səviyyədə təmasların artırılmasına yönəlmiş səyləri barədə danışılıb.

ABŞ-Azərbaycan Ticarət Palatasının təmsilçisi Azərbaycanda biznes və investisiya imkanları barədə danışıb və diqqəti qeyri-neft sektorunun inkişafı məqsədilə ölkəmizdə müxtəlif istiqamətlərdə aparılan uğurlu islahatlara yönəldib.

Eyni zamanda, konfrans çərçivəsində Azərbaycan barədə müxtəlif nəşrlərin nümayiş etdirildiyi məlumat guşəsi təşkil olunub, ölkəmizlə biznes və investisiya əlaqələrinin qurulmasında maraqlı olan şirkətlərlə bu istiqamətdə müzakirələr aparılıb və onlar müvafiq prosedurlar barədə məlumatlandırılıb.

Tədbir Şimali İllinoys Universitetinin Biznes Kollecinin sponsorluğu ilə Mərkəzi Asiya Məhsuldarlığın Araşdırılması Mərkəzi tərəfindən təşkil edilib. Həmçinin konfransın həmsponsorları qismində "Silk Way Airlines", "SME Group" şirkəti, "Qlobal Biznes Məsləhəti" jurnalı, Tianjin İqtisadi Texnoloji İnkişaf Sahəsi, Uaytsayd Bölgəsi üzrə İqtisadi İnkişaf Departamenti və "ABŞ-Qazaxıstan Biznes Assosiasiyası çıxış edib.

Yusif Babanlı

AZƏRBAYCAN NƏQLİYYAT VƏ LOGİSTİKA SAHƏSİNDƏ LATVİYANIN MÜHÜM POTENSİAL TƏRƏFDAŞIDIR

Azərbaycan Cənubi Qafqaz regionunda nəqliyyat və logistika sahəsində Latviyanın mühüm potensial tərəfdaşıdır. Bunu Latviyanın yollar naziri Uldis Auqulis Azərbaycanın Riqadakı səfiri Cavanşir Axundovla görüşündə deyib.

Görüşdə Azərbaycan və Latviya arasında nəqliyyat və rabitə sahəsində əməkdaşlıq məsələləri, habelə hökumətlərarası komissiyanın iclasının keçirilməsi vaxtı müzakirə edilib.

Nazir Azərbaycan ərazisindən Şimal-Cənub nəqliyyat dəhlizi üzrə yükdaşımaların inkişafında böyük potensial gördüyünü qeyd edib. "Biz Yaxın Şərq və Cənubi Asiya ölkələrinə (Pakistan, Hindistan), habelə İran və Azərbaycana Baltik dənizindən Avropa İttifaqı bazarına keçməyi təklif edirik", - deyə U.Auqulis diqqətə çatdırıb.

Görüşdə vurğulanıb ki, artıq Latviya Azərbaycan ərazisindən Hindistandan konteyner yükdaşımaları üçün yeni marşrutlar üzərində fəal işləyir, Şimali Avropaya yüklərin Latviya limanları vasitəsilə daşımasını təklif edir.

Səfir Cavanşir Axundov deyib ki, Şimal-Cənub dəhlizinin inkişafı Azərbaycan üçün yüksək prioritetdir. Səfir Latviya və Azərbaycan arasında ticarət əlaqələrinin fəallaşdırılmasının zəruriliyini vurğulayıb.

Nigar Cəfərli

DƏNİZ YOLLARI İLƏ TƏHLÜKƏLİ YÜKLƏRİN DAŞINMASINA DAİR TƏLİM VƏ HAZIRLIQ KURSU KEÇİRİLİB

Aprelin 18-27-də Dövlət Dəniz Administrasiyası Fövqəladə Hallar Nazirliyi ilə birgə Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycan Respublikasında dəniz nəqliyyatı sahəsində məsuliyyətin artırılmasında Dövlət Dəniz Administrasiyasına dəstək" adlı tvinninq layihəsi çərçivəsində "Dəniz yolları ilə təhlükəli yüklərin daşınmasına dair Beynəlxalq Məcəllə" üzrə təlim və hazırlıq kursu təşkil edib.

Tvinninq layihəsinin başlıca məqsədi Azərbaycanda dəniz gəmiçiliyinin təhlükəsizliyinin təmin olunmasında və dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınmasında beynəlxalq konvensiyalarda nəzərdə tutulmuş məsuliyyət prosedurlarının Avropa İttifaqı qanunvericiliyi ilə əlaqəli şəkildə həyata keçirilməsi və tətbiqi məsələlərində Dövlət Dəniz Administrasiyasının potensialını gücləndirməkdən ibarətdir.

Layihə çərçivəsində ölkəmizə dəvət olunan ispaniyalı mütəxəssislər F.Collado, L.Fernandez və R.Pastor tərəfindən təhlükəli yüklərin daşınmasına dair BMT-nin Tövsiyələri, "Dəniz yolları ilə təhlükəli yüklərin daşınmasına dair Beynəlxalq Məcəllə"nin ümumi müddəaları, təhlükəli yüklərin təsnifatı, siyahısı, onlara dair xüsusi müddəalar və istisnalar, fövqəladə hallara qarşı cavab tədbirləri, təhlükəli yüklərin təhlükəsiz daşınmasına dair tövsiyələr və liman ərazisində müvafiq fəaliyyət, Təhlükəsiz konteynerlər üzrə Beynəlxalq Konvensiya, Avropa SAFESEANET sistemi və digər məsələlər ətraflı izah edilib. Həmçinin "Dəniz yolları ilə təhlükəli yüklərin daşınmasına dair Beynəlxalq Məcəllə"yə dair bir sıra praktiki məşğələlər aparılıb.

Təlimlərdə Dövlət Dəniz Administrasiyasının nümayəndələri və Fövqəladə Hallar Nazirliyinin təhlükəli yüklərin daşınması ilə əlaqədar fəaliyyətə cəlb edilmiş müfəttişləri iştirak ediblər.

Sonda iştirakçılara sertifikatlar təqdim olunub.

BEYNƏLXALQ DƏNİZ TƏŞKİLATINA ÜZV ÖLKƏLƏRİN MƏCBURİ AUDİT YOXLAMASINA HAZIRLIQ PROSESİ MÜZAKİRƏ OLUNUB

Beynəlxalq Dəniz Təşkilatına üzv ölkələrin məcburi audit yoxlamasına hazırlıq prosesi müzakirə olunub.

Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının mətbuat xidmətindən bildirilib ki, Dövlət Dəniz Administrasiyasında Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycan Respublikasında dəniz nəqliyyatı sahəsində məsuliyyətin artırılmasında Dövlət Dəniz Administrasiyasına dəstək" adlı tvinninq layihəsinin rüblük iclası keçirilib.

İclasda Üzv Dövlət və Benefisiar Ölkə tərəfindən layihə rəhbərləri və müşavirləri ilə yanaşı, Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin layihə üzrə Proqram meneceri, Proqram İdarəetmə Qurumunun nümayəndəsi, Dövlət Dəniz Administrasiyasının əməkdaşları iştirak ediblər.

İclasda adıçəkilən layihənin həyata keçirilməsi üzrə hesabatlar dinlənilib, görülən işlər, son dövr ərzində əldə olunan nailiyyətlər barədə geniş məlumat verilib, maliyyə hesabatları iştirakçılara təqdim olunub. "Dəniz tələbləri ilə bağlı məsuliyyətin məhdudlaşdırılması haqqında" 1976-cı il tarixli Beynəlxalq Konvensiyaya dəyişikliklər edilməsi barədə" 1996-cı il tarixli Protokola qoşulmaqla bağlı müvafiq sənədlərin Tvinninq layihəsi çərçivəsində "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq hazırlanıb aidiyyəti üzrə təqdim olunması və adıçəkilən Protokolun Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilməsi layihə rəhbərləri tərəfindən xüsusi olaraq vurğulanıb.

İclas zamanı, Beynəlxalq Dəniz Təşkilatına üzv ölkələrin məcburi audit yoxlamasına hazırlıq prosesi müzakirə olunub və bu prosesdə tvinninq layihəsinin göstərdiyi dəstək vurğulanaraq, normativ–hüquqi aktların işçi qaydada işlənib hazırlanması və qanunvericiliyin Avropa İttifaqı direktivlərinə uyğun olaraq təkmilləşdirilməsi istiqamətində bir sıra işlərin görüldüyü bildirilib.

Sonda, qeyd olunan tvinninq layihəsinin uğurlu icrasını nəzərə alaraq layihənin icra müddətinin artırılması imkanları müzakirə olunub.

Qeyd edək ki, adıçəkilən tvinninq layihəsinin başlıca məqsədi, Azərbaycanda dəniz üzgüçülüyünün təhlükəsizliyi və dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması ilə əlaqədar beynəlxalq konvensiyalarda nəzərdə tutulmuş məsuliyyət prosedurlarının Avropa İttifaqı qanunvericiliyi ilə əlaqəli şəkildə həyata keçirilməsi və tətbiqi məsələlərində Dövlət Dəniz Administrasiyasının potensialını gücləndirməkdən ibarətdir.

FİNLANDİYADAN İRANA GÖNDƏRİLƏN YÜKLƏRİ 15 GÜN ƏRZİNDƏ ÇATDIRMAĞI PLANLAŞDIRIR

"AzRusTrans" Azərbaycan-Rusiya şirkəti Finlandiyadan İrana göndərilən yükləri 15 gün ərzində çatdırmağı planlaşdırır.

"RusAqroTrans" və "Azərbaycan Dəmir Yolları"nın müştərək müəssisəsi olan "AzRusTrans" şirkətinin baş direktoru Cavid Quliyev bunu "Novıye İzvestiya"ya müsahibəsində bildirib.

Şirkətin rəhbəri deyib: "Biz Finlandiyalı tərəfdaşlarımızla uğurlu danışıqlar aparmışıq. İranla Finlandiya arasında və Hindistanla Finlandiya arasında yük dövriyyəsinin həcmi bir neçə milyard dollara bərabərdir. Hazırda Finlandiyadan göndərilən yüklər Rusiyaya çox dolaşıq yolla - Fin körfəzi regionundakı bütün ölkələrin dövrəsindən keçərək daxil olur. Bu yola təxminən 45-50 gün, bəzən hətta iki ay vaxt sərf edilir. Bizim köməyimizlə Finlandiya həmin marşrutu 3 dəfə qısalda biləcək, yəni yola cəmi 15 gün vaxt sərf ediləcək. Marşrutun maya dəyəri ilə bağlı bəzi həll edilməmiş məqamlar var. İndi biz bu məsələlər üzərində işləyirik – Rusiya Dəmir Yolları və Azərbaycan Yolları ilə fəal danışıqlar aparırıq. Finlandiyadan göndərilən yüklərin artıq yaxın gələcəkdə qısaldılmış marşrut üzrə çatdırılacağına əsla şübhə yoxdur".

Cavid Quliyev müştərək müəssisənin gələcək planları barədə sualı cavablandıraraq deyib: "Hazırda şirkət İran ərazisində taxıl terminalı tikilməsini planlaşdırır. Azərbaycanı İranla birləşdirən yolun çatışmayan 8,3 kilometr uzunluğunda hissəsinin tikintisi başa çatdırılıb. Bu gün "AzRusTrans" şirkəti taxıl terminalının tikintisini sərmayələşdirməyə hazırdır. Bu məsələ barədə danışırlar aparılır. Həmin terminal eyni vaxtda 60.000 ton taxılı maneəsiz saxlamağa imkan verəcək. Beləliklə, daşıma xərclərini təqribən 30-40 faiz azaldacağıq".

"LİMAN" TƏDQİQAT GƏMİSİ BATIB

Rusiyanın Qara Dəniz Donanmasına məxsus "Liman" tədqiqat gəmisi Bosfor körfəzi yaxınlığında Toqo bayrağı altında üzən "Yozuzarsif-H" yük gəmisi ilə toqquşub.

Qəza nəticəsində "Liman" gəmisi zədələnib. Son məlumata görə, "Liman" tədqiqat gəmisi batıb.

Türkiyə Sahil Mühafizəsi Xidmətindən TASS agentliyinə bildiriblər ki, Rusiya gəmisində olan 78 gəmiçinin hamısı təxliyə olunub. Ölən və yaralanan yoxdur. Yük gəmisi zədələnməyib və onun heyəti yardım barədə müraciət etməyib.

Gəmilərin toqquşması Bosfor körfəzinə girişdə, Kilos burnu yaxınlığında baş verib. Qəzaya qatı dumanın səbəb olduğu bildirilir.

DƏNİZİN GƏMİLƏRDƏN ÇİRKLƏNDİRİLMƏSİNİN QARŞISININ ALINMASI İLƏ BAĞLI TƏLİMİN İŞTİRAKÇILARINA SERTİFİKATLAR TƏQDİM OLUNUB

Aprelin 24-28-də Dövlət Dəniz Administrasiyasında "Azərbaycan Respublikasında dəniz nəqliyyatı sahəsində məsuliyyətin artırılmasında Dövlət Dəniz Administrasiyasına dəstək" adlı tvinninq layihəsi çərçivəsində "Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" Konvensiyanın (MARPOL) tətbiqinə dair təlim kursu keçirilib.

Adıçəkilən tvinninq layihəsinin başlıca məqsədi Azərbaycanda dəniz üzgüçülüyünün təhlükəsizliyi və dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması ilə əlaqədar beynəlxalq konvensiyalarda nəzərdə tutulmuş məsuliyyət prosedurlarının Avropa İttifaqı qanunvericiliyi ilə əlaqəli şəkildə həyata keçirilməsi və tətbiqi məsələlərində Dövlət Dəniz Administrasiyasının potensialını gücləndirməkdən ibarətdir.

Tvinninq layihəsi çərçivəsində ölkəmizə dəvət olunan ispaniyalı mütəxəssislər - P.Donis və J.A.Conde tərəfindən 5 gün ərzində təlimə qatılan iştirakçılara dənizin gəmilərdən çirkləndirilməsinin tarixi, mənbəyi, gəmilərdən çirkləndirilmənin beynəlxalq hüquqi əsasları, MARPOL Konvensiyası, onun strukturu, orada nəzərdə tutulmuş hüquq və öhdəliklər, MARPOL Konvensiyasının neftlə çirklənmənin qarşısının alınmasına dair I əlavəsi, qalama üsulu ilə maye halında olan zərərli maddələrin daşınması haqqında II əlavəsi, "Dənizlə qablaşdırılmış formada daşınan zərərli maddələrlə çirkləndirmənin qarşısının alınmasına dair" III əlavəsi, "Dənizin gəmilərdən çirkab sularla çirklənməsinin qarşısının alınmasına dair" IV əlavəsi, "Dənizi gəmilərdən tullantılarla çirkləndirilməsinin qarşısının alınmasına dair" V əlavəsi, "Havanın gəmilərdən çirkləndirilməsinin qarşısının alınmasına dair" VI əlavəsi ətraflı şəkildə izah edilib, sertifikatlaşdırma və sənədləşdirmə üzrə təcrübi məşğələlər aparılıb.

Təlimlərdə Dövlət Dəniz Administrasiyasının əməkdaşları və administrasiyanın tabeliyində Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzinin nümayəndələri iştirak ediblər.

Təlimin sonuncu günü həftə ərzində əldə olunan biliklər təkrar olaraq bir daha nəzərdən keçirilməklə, yekun imtahan təşkil olunub. Eyni zamanda, sonda iştirakçılar tərəfindən təlim kursunun qiymətləndirilməsi aparılıb və iştirakçılara sertifikatlar təqdim olunub.

DƏNİZÇİLƏR "ELEKTRON HÖKUMƏT" PORTALINDAN İSTİFADƏ İLƏ BAĞLI MAARİFLƏNDİRİLİB

Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasında "Elektron hökumət" portalının imkanları və istifadəsi ilə bağlı dənizçilər arasında maarifləndirmə tədbiri keçirilib.

Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının mətbuat xidmətindən bildirilib ki, maarifləndirmə tədbiri, Azərbaycan Respublikası Prezidentinin 2016–cı il 27 aprel tarixli 1993 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2016–2018–ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan tədbirlərin icrası üzrə Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının 2017–ci il iş planına uyğun olaraq keçirilib.

Tədbirdə Dövlət Dəniz Administrasiyasının rəsmi internet səhifəsindən rahat və düzgün istifadə qaydaları izah olunub.

Dənizçilərə, Dövlət Dəniz Administrasiyasının rəsmi internet səhifəsində göstərilən və daim işlək olan 17 elektron xidmət barədə məlumat verilib. Bütün xidmətlərin elektron hökumət portalına inteqrasiya olunması və real vaxt üzrə işləməsi diqqətə çatdırılıb.

Maarifləndirmə tədbirində, hökumət portalından istifadə edərək qeydiyyatdan keçən iştirakçılar elektron imza və istifadəçi adını əldəetmə qaydalarından yararlanıblar.

Daha sonra iştirakçılar Administrasiyanın rəsmi internet səhifəsinə daxil olaraq aidiyyəti sualları ünvanlamaq üçün saytda daim aktiv olan "Bizimlə Əlaqə" bölməsinin real istifadə imkanları ilə yaxından tanış olublar.

Maraqlı müzakirələrlə davam edən maarifləndirmə tədbirində bütün suallar ətraflı cavablandırılıb.

DƏNİZİN DAHA DƏRİN HİSSƏSİNDƏ BORU KƏMƏRİNİN TİKİNTİSİ "PİONEERİNG SPİRİT" GƏMİSİ İLƏ HƏYATA KEÇİRİLƏCƏK

Rusiya təbii qazının Türkiyə və Avropaya nəqlini nəzərdə tutan "Türk axını" qaz boru kəmərinin (Turkish Stream) tikintisinə başlanılıb.

Bu barədə Rusiyanın "Gazprom" şirkəti məlumat yayıb. Bildirilir ki, hazırda boru kəmərinin Qara dənizdən keçəcək hissəsinin inşası həyata keçirilir. İşlər "Türk axını"nın dəniz hissəsində iki boru kəmərinin tikintisini həyata keçirən İsveçrənin "Allseas" şirkətinə məxsus "Audacia" adlı gəmi ilə aparılır. Dənizin daha dərin hissəsində boru kəmərinin tikintisi isə "Pioneering Spirit" adlı gəmi vasitəsilə həyata keçiriləcək.

"Türk axını" layihəsi Qara dəniz üzərindən Türkiyənin Avropa hissəsinədək və daha sonra Yunanıstan sərhədinədək qaz boru kəmərinin tikintisini nəzərdə tutur. Kəmərin dəniz hissəsinin uzunluğu 910 kilometrə yaxın, quru hissəsi isə Türkiyə ərazisi üzrə 180 kilometrdir. Boru kəmərinin birinci xətti türk bazarı, ikincisi Cənubi və Cənub-Şərqi Avropa ölkələri üçün nəzərdə tutulur. Hər bir xəttin illik ötürücülük gücü 15,75 milyard kubmetrdir. Layihənin ümumi dəyəri 11,4 milyard avro həcmində qiymətləndirilir.

TƏYYARƏDAŞIYAN GƏMİNİ SUYA BURAXIB

Çin tamamilə milli layihə ilə hazırlanan ilk təyyarədaşıyan gəmini Dalyan limanında suya endirib. Yerli KİV-lər tikintisi 2013-cü ilin noyabrında başlayan "Type 001A" gəmisinin son hazırlıq və sınaqlardan sonra 2020-ci ildə silahlı qüvvələrin arsenalına qəbul ediləcəyini yazır.

TASS informasiya agentliyi xəbər verir ki, yeni gəminin uzunluğu 315 metr, eni 75 metrdir. Təyyarədaşıyan saatda 60 kilometrə yaxın sürətlə hərəkət edə bilir. Onun göyərtəsində 36 ədəd "Szyan-15" qırıcı təyyarəsi yerləşəcək.

Hazırda Çinin Hərbi Dəniz Qüvvələrinin arsenalında "Lyaonin" adlı bir təyyarədaşıyan gəmi var. O, 90-cı illərin sonlarında Ukraynadan alınan "Varyaq" aviadaşıyıcı kreyserin bazasında hazırlanıb. "Type 001A" təyyarədaşıyanı "Lyaonin"in prinsipinə uyğun, lakin ölçüsünə görə bir qədər böyük və bir sıra modifikasiyalarla tikilib.

Çin hazırda böyük həcmli üçüncü "üzən aerodromun" tikintisini də davam etdirir. Bu gəminin, eyni zamanda, nüvə-güc qurğusu və bir neçə buxar katapultu ilə təchiz olunması nəzərdə tutulur.

GƏMİÇİLİYİN KOLLEKTİVİ İMƏCİLİK KEÇİRİB

Ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü ilə əlaqədar "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin əməkdaşları iməcilik keçiriblər. İməcilik "Bibiheybət" Gəmi Təmiri Zavodunun ərazisində baş tutub. Səhər saatlarından start verilən iməcilik günortayadək davam edib.

Kollektivin çoxsaylı nümayəndələrinin iştirak etdiyi iməcilikdə ərazinin iqlim şəraitinə uyğun xeyli sayda şam ağacı əkilib.

Əkilən hər bir ağacın normal böyüməsi üçün mineral gübrələrdən və digər lazımi vasitələrdən istifadə edilib. Bundan başqa, ərazidə təmizlik işləri görülüb, əvvəlki illərdə əkilmiş ağaclara aqrotexniki qulluq edilib.

Yaşıllaşdırma kampaniyası paytaxt Bakının ekoloji mühitinin yaxşılaşdırılması və şəhərin daha da gözəlləşdirilməsinə xidmət edir. Gəmiçiliyin əməkdaşları tərəfindən belə tədbirlərin bundan sonra da davam etdirilməsi nəzərdə tutulub.

YARIZARAFAT, YARIGERÇƏK

Dostun atdığı daş dəyməyəndə də, adamı incidir.

Allahım, yaxşı adama hətta düşmənin də ən ağıllısını qismət elə.

Yaxşı tərbiyənin pis bəhrəsi olmur.

Yalan zəhərdən betərdir.

Məğlubiyyətə bərabər qələbə də, qələbəyə bərabər məğlubiyyət də olur.

Qalib gəlməyə özünü udmaqdan başla.

Çox adamın bütün keçmişini bir sözlə ifadə etmək olar: "Kaş ki!"

Biz həyatı dərk etməyə başlayanda o qədər gec olur ki, bağışlanmağa vaxt tapmırıq.

Pul, puldan vacib şeyləri əldə etmək üçündür.

Bir vaxtlar başına görə Şərqin ayağını öpənlər, bu gün ayağının altındakılara görə başını kəsməyə hazırdırlar.

Allaha inanıram. Bəlkə ona görə ki, inanmağa kimsə qalmayıb.

Yaxşı ovçu sərçəyə güllə atmaz.

Yaxşı qurtarmayacağın işi başlama.

Hamı həyatdan, həyata verdiyindən artıq almağa çalışsa, gələcək nəslə heç nə qalmaz.

Gələndə, mən olmayacağım üçün ölüm barədə fikirləşmirəm.

Düşünməkdə təhlükəli nə var ki, çoxu düşünməyi xoşlamır?

Bərabərlik ancaq riyaziyyatda olur.

Şadam ki, indi məni necə gəldi, dəyər-dəyməzinə yox, daha sivil qaydada satırlar.

Yaxşı cavan olmayanda pis qocanın işartılarını görmək çətin deyil.

Küləklə gəminin səmti bir olanda, dənizin də üzü gülər, dənizçinin də.

İştahası olmadığı üçün birinin dediyi o birinin boğazından keçmir?

Eyni çəkidə olmayanlar da bəzən eyni ağılda olur.

Yaxşı adamın kürəyindən yaxşı hədəf yoxdur?

İnanmıram ki, bəzi adamlara hətta cəhənnəmdə "Buyur, keç yuxarı başa" desinlər.

Dünyaya ağlaya-ağlaya gəliriksə, bu, yaxşı yerə gəlmədiyimizə işarə deyil?

Özünə vurğunlar vurğunların ən pisidir.

Bacarmadığın kiçik iş də sənə dağ kimi görünər.

Qeyri-mümkün saydığınız istənilən iş sizin üçün elə qeyri-mümkün qalacaq.

Nöqtə bütün işarələrin ən yaxşısıdır. Nöqtədən sonra təzə hər şeyə başlamaq olar.

Söhbət özünü bağışlamaqdan getmirsə, bağışlamaqdan gözəl şey yoxdur.

Mənim də qorxduğum şeylər var. Amma xoşbəxtlikdən düşmənlərim məni yalnız özlərinin qorxduqları şeylərlə qorxutmağa çalışıblar.

Danışa bilmədiyi üçün hər şeyi zamanın boynuna yıxırıq?

Qartalın caynağında yüksəklərə ucalan dovşan çox xoşbəxtdir?

Hətta saqqız çeynəyənlər də söz çeynəyənlər qədər məni əsəbləşdirmir.

Düşməniniz həmişə olacaq. Dostunuzun olmamasından qorxun.

Yalnız o biri dünyaya apara bilcəyimiz şeylər bizimdir.

Sən yaymasan, heç kəs sənin sirrini yaya bilməz.

Yalan həqiqətin səbrini, həqiqət yalanın kökünü kəsər.

İblisin gücü inadkarlığındadır.

Cənnət də, cəhənnəm də var. Mən öz həyatını cəhənnəmə döndərən o qədər adam tanıyıram ki!

Gələcəkdə bizi daşa tutmayacaqlarına əminəm. Bizə atıla bilən bütün daşları biz keçmişimizə atdıq.

Dostu bağışlamaq qazanmaqdan çətin imiş...

Ən gücsüz adam yaxşılığa gücü çatmayan adamdır.

Az gördükləri üçün yaxşılığı çox az adam başa düşür?

Hər zaman insan olmaqdan böyük qəhrəmanlıq yoxdur.

Ağlım həmişə başımda olsa, cibimin tez-tez boşalmasının qorxusu yoxdur.

Optimist yalnız gülməyi bacaran deyil.

Başqalarını haqlı-haqsız pisləyən adamlardan uzaq qaçın. Bir gün sizi də pisləyəcək.

Yalnız tülkülər həyata tülkü kimi gəlir. Qalan "tülkülər" tülkülüyü sonra öyrənirlər.

Bir gün bu dünyadan köçəcəyəmsə, deməli ən azı, əvəzolunmaz deyiləm.

İki evli kişinin bildiyi sirri iki qadının bilmək ehtimalı çox böyükdür.

Ölümün açа bilmədiyi qapı yoxdur.

Allah bizə yaxşı çox şey verib. Sadəcə, yaxşı şey olduğunu dərk eləmirik.

Rasif TAHİROV

SÜRÜCÜSÜZ AVTOBUSLAR

Vyanada ictimai sərnişindaşıma xidmətini həyata keçirən Vyana Şəhər Xətləri şirkəti sürücüsüz hərəkət edən ilk mikroavtobusun təqdimatını keçirib. Şəhərin ən yeni rayonu olan Zeeştadt Aspern ərazisində marşruta buraxılacaq mikroavtobus gələn ilin əvvəlindən sınaqdan keçiriləcək.

Fransanın "Navya" şirkətinin istehsalı olan "Navya Arma" markalı mikroavtobus elektrik mühərriklə çalışır və iki ildən sonra ictimai nəqliyyatda müntəzəm cədvəl üzrə hərəkət etməsi planlaşdırılır.

Vyana Şəhər Xətlərinin baş direktoru Qünter Ştaynbauer "pilotsuz pilot layihə" barədə mətbuata verdiyi açıqlamada bildirib ki, sürücüsüz hərəkət edən nəqliyyat vasitələri müasir dövrün meqatrendidir və bu trend şəhərlərin mənzərəsini ciddi şəkildə dəyişməyə qabil olan potensiala malikdirlər. Məhz buna görə də Vyana Şəhər Xətləri ictimai nəqliyyat sektorunda fəaliyyət göstərən şirkət kimi bu sahədə ən ön sıralarda yer almağa qərar verib.

Avstriya Nəqliyyat Nazirliyinin maliyyə vəsaiti hesabına formalaşan tədqiqat layihəsi çərçivəsində 11 sərnişin daşımaq imkanına malik olan sürücüsüz iki mikroavtobusun xüsusi dayanacaqlar, hərəkət cədvəli və əsl sərnişinlərin iştirakı ilə test yürüşləri aparılacaq. Kamera və sensorlarla təchiz olunan "ağıllı" avtobuslar digər nəqliyyat vasitələri ilə interaksiyada olmaq imkanına sahibdirlər və yol hərəkətində baş verən gözlənilməz hadisələr zamanı müvafiq manevrlər edə biləcəklər.

Konsepsiyanın inkişafı və testlər tam başa çatdırıldıqdan sonra sürücüsüz avtobusların 2019-cu ildən müvafiq marşrutlar üzrə müntəzəm hərəkəti nəzərdə tutulur.

Vyana Şəhər Xətləri, Avstriya Texnologiya İnstitutu, Nəqliyyat Təhlükəsizliyi üzrə Kuratorluq, Avstriya Texniki Nəzarət Cəmiyyəti və "Siemens" şirkətinin avtobus istehsalçısı "Navya" şirkəti ilə birgə çalışdığı layihə çərçivəsində texnoloji məsələlərlə yanaşı, çoxlu sayda hüquqi məsələlərə aydınlıq gətirilməlidir.

Elgün Niftəli

ƏN SƏMƏRƏSİZ HAVA LİMANI

Atlantik okeanındakı ən səmərəsiz hava limanı il ərzində ilk dəfə olaraq sərnişin təyyarəsini qəbul edib. Bu barədə "Times" nəşri məlumat verib.

"vistanews.ru" saytı xəbər verir ki, hava limanı ilə bağlı Atlantik okeanında, Müqəddəs Yelena adasında bir il əvvəl meydança tikilib. Bütün bu müddət ərzində yalnız mayın 7-də 60 nəfərlə ilk sərnişin təyyarəsi yerə enib. Aeroportun tikintisinə xeyli vəsait - 370 milyon dollar xərclənib, lakin indiyədək onun tikintisinə sərf edilən xərc ödənilməyib və dünyanın ən səmərəsiz hava limanı sayılır.

Hava limanının administrasiyasından bildiriblər ki, mürəkkəb relyefə malik ərazidə, əsasən də güclü küləkdə təyyarənin enişi xeyli çətinləşir. Enmə zolağı daim toz və qumla dolur ki, bu da qəza vəziyyətinin yaranmasına səbəb ola bilər.

KÖKƏLMƏYƏ SƏBƏB OLMAYAN 10 MƏHSUL

Diyetoloqlar günün istənilən vaxtı yeyilməsi məsləhət görülən məhsulların adlarını açıqlayıblar. Əsas məsələ budur ki, həmin məhsullar kökəltmir, onları axşam saat 6-dan sonra yemək olar və yemək lazımdır.

"FederalPress" saytı xəbər verir ki, alimlər axşam saatlarında sağlamlığa faydalı olan 10 məhsulu müəyyən ediblər. Qara şokolad əhval-ruhiyyəyə yaxşı təsir göstərir və təzyiqin aşağı düşməsi zamanı xeyirlidir. Vitaminlərlə zəngin püstə ikinci yerdədir. Üçüncü yeri paxla əlavə edilməyən toyuq və ya tərəvəz şorbası, dördüncü yeri orqanizmi zərərli maddələrdən təmizləyən balqabaq tumları tutub.

Ballı süd beşinci yerdədir. Bal əlavə edilmiş süd yuxu gətirir və gündəlik stressdən qurtulmağa kömək edir. Diyetoloqlar vitaminlərlə zəngin olan düyü yeməyi də məsləhət görürlər. Qaymaqla qarışdırılmış qaragilə aclıq hissini yatıran güclü vasitədir. Badam və toyuq əti də faydalı məhsullardan sayılır. Siyahıda sonuncu yeri çox xeyirli xüsusiyyətlərə malik zəncəfilli çay tutur.

DÜNYA OKEANINDA SUYUN SƏVİYYƏSİ YÜKSƏLİR

Beynəlxalq tədqiqatçıların apardığı yeni araşdırmaya görə, qlobal istiləşmə nəticəsində okeanlarda suyun qızması Antarktidada buzlaqların sürətlə əriməsi və dünya okeanının səviyyəsinin 10 metrədək artmasına səbəb ola bilər.

İngiltərənin Southempton Universitetinin professoru Sibren Drifhautun fikrincə, proses həmin qayda ilə davam etsə, yaşadığımız əsrdə dünya okeanının səviyyəsi 3 metrədək arta bilər. Qlobal istiləşmə gələn əsrlərdə suyun səviyyəsinin 10 metrdən də çox yüksəlməsinə və çay deltasındakı şəhərlərin su altında qalmasına səbəb olacaq.

"Environmental Research Letters" dərgisində dərc edilən araşdırmanın nəticəsinə əsasən, XXI əsrdə okean suyunun səviyyəsi ən azı 2.5-3 metrə qədər artacaq.

QADIN BOKSÇULARIMIZ POLŞADA İKİ MEDAL QAZANIBLAR

Polşanın paytaxtı Varşavada kişi və qadın boksçular arasında Feliks Stammanın xatirəsinə həsr olunmuş beynəlxalq turnir keçirilib. 34-cü dəfə təşkil olunan "A" kateqoriyalı ənənəvi yarışa Azərbaycan yığması da qatılıb.

23 ölkədən boksçuların mübarizə apardığı turnirdə millimiz 6 qadın boksçu ilə təmsil olunub. Səfərə baş məşqçi Elbrus Rzayevin rəhbərliyi altında yollanan komandamız turniri 2 medalla başa vurub.

Yığmamızın lideri Anna Əlimərdanova Varşavada bütün rəqiblərindən üstün olub. Yarışda 57 kiloqram çəki dərəcəsində çıxış edən Avropa Oyunlarının bürünc medalçısı finalda amerikalı Vendi Cesi ilə qarşılaşıb. 4:0 hesabı ilə qalib gələn Əlimərdanova qızıl medala yiyələnib.

Komandamızın aktivinə digər medalı Şəhla Allahverdiyeva yazdırıb. Turnirdə 69 kiloqram çəki dərəcəsində qüvvəsini sınayan boksçumuz həlledici görüşdə almaniyalı Nadine Apitslə qarşılaşıb. 0:5 hesabı ilə məğlub olan təmsilçimiz gümüş medalla kifayətlənib.

Yarışı 1 qızıl və 1 gümüş medalla başa vuran qadınlardan ibarət yığmamız komanda hesabında ikinci yeri tutub.

Qeyd edək ki, digər boksçularımızdan Viktoriya İsmayılova (51 kq), Məhsəti Həmzəyeva (57 kq) 1/8 finalda, Anaxanım Ağayeva (51 kq) və Yana Alekseyevna (60 kq) isə 1/4 finalda məğlubiyyətə üzülüblər.



AZƏRBAYCANIN ELİT YIĞMA KOMANDASININ ÜZVÜ KİRİL POZDNYAKOV YARIŞIN ƏN YAXŞI VELOSİPEDÇİSİ OLUB

Ümummilli lider Heydər Əliyevin 94-cü ildönümünə həsr olunmuş "Tour d'Azerbaidjan-2017" beynəlxalq velosiped turu keçirilib. 2.1 kateqoriyalı yarışın sonuncu mərhələsinin start və finiş nöqtəsi Azadlıq meydanında olub. Bu dəfə iştirakçılar Bakı-Abşeron-Bakı marşrutu üzrə 158 kilometr məsafə qət ediblər.

Veloturun bağlanış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Arzu Əliyeva və Azərbaycan Ağır Atletika Federasiyasının vitse-prezidenti Azər Əliyev iştirak ediblər.

Veloturun son mərhələsinin qalibi "İsrael Cycling Academy" komandasının üzvü Krist Neylands olub. O, məsafəni 3 saat 53 dəqiqə 56 saniyəyə başa vurmaqla solo-finiş edib. Türkiyənin "Torku Şekerspor" və ABŞ-ın "İlluminate" klublarının velosipedçiləri Ahmet Örken və Edvin Avila qalibdən 21 saniyə geri qalmaqla, 2-3-cü yeri tutublar.

Yarışın lider köynəklərinin sahibləri dəyişilməz qalıb - Azərbaycanın Elit yığma komandasının üzvü Kiril Pozdnyakov ümumi təsnifatın qalibi üçün nəzərdə tutulan "Synergy" köynəyini özündə saxlamaqla, "Tour d'Azerbaidjan-2017"nin qalibi olub. Bundan başqa, təmsilçimiz dağ yollarındakı uğurlu çıxışı ilə ən yaxşı dağ velosipedçisinə verilən qırmızı rəngli "AZAL" köynəyinə də yiyələnib. Bütün bunların yekunu olaraq, Kiril ən yaxşı azərbaycanlı velosipedçi üçün nəzərdə tutlan xüsusi köynəklə də təltif edilib.

Aralıq sprintlərində hamıdan çox xal toplayan "İlluminate" komandasının nümayəndəsi Edvin Avila ən yaxşı sprinter üçün nəzərdə tutulan yaşıl rəngli "SOCAR" köynəyinə layiq görülüb. Fransanın "Delko Marseille Provance KTM" klubunun üzvü Con Anderson Rodriqes ən yaxşı gənc velosipedçi kimi bənövşəyi rəngli "ATAHOLDİNG" köynəyi ilə mükafatlandırılıb. Komanda hesabında isə Ukraynanın "Kolss" komandası 1-ci yeri tutub.

Qeyd edək ki, "Tour d'Azerbaidjan-2017" yarışında 18 ölkənin 22 komandası mübarizə aparıb. "Synergy Baku" bu yarışda Elçin Əsədov, Elgün Əlizadə, Samir Cəbrayılov, Yosip Rumaç, Kiril Pozdnyakov və Ənvər Asanovla təmsil olunub.

Kiril Pozdnyakov təəssüratlarını bölüşərək deyib: "Qalib gəldiyim üçün şadam. Bu qələbə mənim üçün çox önəmlidir. Çünki məhz Azərbaycanda qalib gəldim. Uğur yalnız bir nəfərin adına yazılmır. Bu, bütün komanda üzvlərinin səyi nəticəsində reallaşır. Sözsüz, İsmayıllıda böyük fərqlə qalib gəlməyim imkan verdi ki, növbəti mərhələlərdə daha rahat çıxış edim. Çünki vaxta görə rəqiblərimi çox qabaqlayırdım və yekunda çempion oldum. Yaxın gələcəkdə Sloveniya və Slovakiyada turlara qatılacağıq. Yaxşı komandamız var. Fiziki hazırlığım da qaydasındadır. Həmin yarışlarda da uğur qazanacağımıza inanıram".

MÜKAFAT FONDU 100000 AVRODUR

Mayın 29-dan iyunun 10-dək Minskdə keçiriləcək şahmat üzrə Avropa çempionatına ərizə vermək müddəti mayın 15-dək uzadılıb.

Turnir növbəti Dünya Kuboku üçün seçim yarışı xarakterindədir. FIDE-nin əsasnaməsinə və Avropa Şahmat İttifaqının idarə heyətinin qərarına əsasən Dünya Kubokuna 22 şahmatçı seçiləcək.

Hazırda 37 ölkə, o cümlədən Azərbaycan öz iştirakını təsdiqləyib. Azərbaycanı qrossmeysterlər Arkadi Naydiç, Eltac Səfərli, Rauf Məmmədov, Qədir Hüseynov, Nicat Abbasov, beynəlxalq ustalar Ülvi Sadıxov, Orxan Abdulov, Nərmin Xələfova, habelə FIDE ustası Kənan Qarayev təmsil edəcək.

Çempionat İsveçrə sistemi üzrə keçiriləcək və 11 turdan ibarət olacaq. Vaxta nəzarət: 40 gediş üçün 90 dəqiqə və partiyanın sonuna qədər hər gediş üçün 30 saniyə əlavə olunmaqla 30 dəqiqə.

Mükafat fondu 100000 avrodur.

SƏRBƏST VƏ QADIN GÜLƏŞÇİLƏRİMİZ AVROPA ÇEMPİONATINDA İKİNCİ YERLƏ KİFAYƏTLƏNİBLƏR

Serbiyanın Novı Sad şəhərində Avropa çempionatda sərbəst və qadın güləşçilərimiz ümumi komanda hesabında ikinci olublar.

Bu barədə Azərbaycan Güləş Federasiyasından məlumat verilib.

Qadın güləşçilərimiz çempionatı 1 qızıl və 2 bürünc medalla tamamlayıblar. Qızıl medalı komandamıza Mariya Stadnik (48 kq), bürünc medalları isə Alyona Kolesnik (55 kq) və Tatyana Omelçenko (60 kq) qazandırıblar.

Bu nəticə ilə qadın güləşçilərimiz komanda hesabında 45 xalla Avropa ikincisi olublar. Rusiya 55 xalla birinci, Belarus isə 43 xalla üçüncü yeri tutub.

Sərbəst güləşçilərimiz çempionatı 1 qızıl, 3 gümüş və 1 bürünc medalla yekunlaşdırıblar. Qızıl medalı yığmamıza Giorgi Edişeraşvili (57 kq) qazandırıb. Murad Süleymanov (74 kq), Aleksandr Qostiyev (86 kq) və Cəmaləddin Məhəmmədov (125 kq) gümüş, Ruslan Dibirhacıyev (70 kq) isə bürünc medala sahib olublar.

Bu nəticə ilə sərbəst güləşçilərimiz komanda hesabında 57 xalla Avropa ikincisi olublar. Rusiya 62 xalla birinci, Türkiyə isə 53 xalla üçüncü yeri tutub.

TRİATLONÇUMUZ DÜNYA KUBOKU YARIŞLARINI GÜMÜŞ MEDALLA BAŞA VURUB

Azərbaycanın triatlon üzrə yığmasının üzvü Rostislav Pevstov Çenqduda (Çin) keçirilən dünya kuboku yarışlarının gümüş medalını qazanıb.

Yarış iki mərhələdən ibarət olub. Əvvəlcə idmançılar yarımfinalda mübarizə aparıblar. Rostislav Pevtsov yarımfinalda 6-ci olub və finala vəsiqə qazanıb.

Finalda 400 metrlik su məsafəsini idmançımız 4 dəqiqə 57 saniyəyə başa vurub. Ardınca isə 10 kilometr velodistansiyanı 13 dəqiqə 39 saniyəyə qət edib. Nəhayət, yarışların son mərhələsi – 2,5 kilometrlik qaçış zolağını R.Pevtsov 7 dəqiqə 2 saniyə nəticə ilə yekunlaşdırıb. Ümumi hesablamada R.Pevtsov 26 dəqiqə 48 saniyə nəticə göstərərək ikinci yerə sahib olub.

Xatırladaq ki, carı mövsümdə R. Pevtsov Las-Palmasda keçirilən Avropa kubokunun qalibi olub və Rabat şəhərində təşkil olunan açıq Afrika kuboku yarışlarında qızıl medal qazanıb.

E L A N

Azərbaycan Dövlət Dəniz Akademiyasının "Gəmi elektrotexnikası" fakültəsinin tələbəsi Ramiz Rəşid oğlu Hüseybəyliyə 2014-cü ildə verilmiş 364R06 nömrəli tələbə bileti itdiyi üçün etibarsız sayılır.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1005, Bakı şəhəri,
M. Ə. Rəsulzadə küçəsi, 5
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 1346